

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 42 (732) ■ 29 oktyabr 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Bakıda Gənclər siyasəti üzrə Birinci Qlobal Forum

*Oktyabrın 28-də Bakıda Gənclər siyasəti üzrə birinci Qlobal Forum işə başlayıb. Tədbirin açılışında çıxış edən BMT baş katibinin gənclər üzrə müavini Əhməd Əlhandavi forumda nazirlərin, ekspertlərin, lider gənclərin iştirak etdiyini və bunun mövzunun müzakirəsində aparıcı rol oynayacağını bildirib.*



Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxuyub.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov bildirib ki, ilk dəfə olaraq Bakıda təşkil olunan Gənclər siyasəti üzrə birinci Qlobal Forum böyük əhəmiyyət kəsb edir. 1998-ci ildən bəri belə bir forum keçirilməyib. Bu, XXI əsrdə ilk dəfə olaraq keçirilən gənclərin çox vacib tədbiridir. Qlobal Forumda 80-dən çox ölkədən 700-dən artıq nümayəndə iştirak edir.

Nazir bildirib ki, gənclər siyasəti bir çox ölkələrin aparıcı istiqamətlərindən biridir. Azərbaycanda gənclərlə bağlı proqramların qəbul edildiyini deyən A.Rəhimov Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə insan kapitalının inkişafına önəm verildiyini vurğulayıb. Azərbaycanda gənclərin çoxluq təşkil etdiyini və onların liderlik bacarıqlarının inkişafı üçün hər cür şərait yaradıldığını deyən nazir bu forumun gənclər siyasətinin inkişafı üçün beynəlxalq proqramın müzakirəsinə də yaxşı imkanlar yaratdığını qeyd edib.

BMT-nin baş katibi Pan Gi Mun da Forum iştirakçılarına videomüraciət ünvanlayıb. O, gənclər siyasəti üzrə birinci Qlobal Foruma ev sahibliyi etməsinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. «Gənclərin maraqları naminə fəaliyyət üzrə Dünya Proqramının 20 illiyi ərəfəsində bu forumun keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu, çox vacib məsələdir. Gənclər gələcəyin liderləridir və onların inkişafına xüsusi diqqət yetirmək lazımdır. BMT sizinlə işləməyə hazırdır», - deyə baş katib qeyd edib.

UNESCO-nun sosial və humanitar elmlər üzrə baş direktorunun köməkçisi Lalla Aişa Ben Barka forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. O, təmsil etdiyi qurumun bu sahədə təcrübəsindən danışıb, gənclərə bacarıqlarının artırılması üçün lazımi şəraitin yaradılmasının zəruriliyini vurğulayıb.

Avropa Şurasının demokratiya üzrə baş direktoru Snejana Markoviç, Qlobal gənclər səfirləri Bəşər Hobbi, Greyt Rios və digər çıxış edənlər dünya gəncləri üçün xüsusi əhəmiyyət daşıyan bu forumun yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdırıb, tədbirdə müasir dünyanı düşündürən məsələlərin müzakirə olunacağını bildiriblər.

## Gənclər siyasəti üzrə birinci Qlobal Forumun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlayır, mötəbər toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Gənclər siyasəti öz müstəqilliyini 23 il əvvəl bərpa etmiş Azərbaycan dövlətinin fəaliyyətində prioritet istiqamətlərdəndir. Bu siyasəti uğurla həyata keçirmək üçün ölkəmizdə əlverişli sosial-iqtisadi və ictimai-siyasi şərait yaradılmışdır. Son illər aparılan ardıcıl islahatlar sayəsində iqtisadiyyatımız sürətli inkişaf yoluna qədəm qoymuş, əhalinin bütün təbəqələri, o cümlədən gənclər arasında yoxsulluğun və işsizliyin səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Təhsil, səhiyyə, mədəniyyət və idmanın maddi-texniki bazası möhkəmlənmiş, cəmiyyətdə davamlı sabitlik bərqərar olmuş, əsrlər boyu xalqımıza xas olan qonaqpərvərlik ənənələri və tolerantlıq mühiti daha dərin kök salmışdır.

Gənc nəslin intellektual, fiziki və mənəvi inkişafının təmin edilməsi, yaradıcı potensialının üzə çıxarılması, ictimai fəallığının artırılması, sosial-məişət və məşğulluq problemlərinin həlli sahəsində kompleks tədbirlərin görülməsi daim diqqət mərkəzindədir. Bu məqsədlə son 10 ildə müvafiq dövlət proqramları təsdiqlənərək icra edilmiş, gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin layihə və təşəbbüslərinə dəstək verən fond yaradılmışdır.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsi və mükəmməl infrastrukturun formalaşdırılması istiqamətində həyata keçirilən layihələr, müxtəlif ölkələr və beynəlxalq təşkilatlarla qurulan ikitərəfli və çoxtərəfli əlaqələr, irimiqyaslı tədbirlərin təşkili sahəsində qazanılmış zəngin təcrübə son illər Azərbaycanın region, qitə və dünya səviyyəli forumlara, konfranslara, zirvə toplantılarına və idman yarışlarına ev sahibliyi etməsinə imkan vermişdir. Əminəm ki, bu gün işə başlayan Gənclər siyasəti üzrə birinci qlobal forum da həmin tədbirlər sırasında layiqli yer tutacaqdır.

Biz ilk forumun Bakı şəhərində keçirilməsi barədə qərarı ölkəmizin gənclərlə iş sahəsindəki təcrübəsinə verilən yüksək qiymət kimi dəyərləndiririk. Hesab edirik ki, bu toplantı qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə gənclər siyasətinin prioritetlərinin dəqiqləşdirilməsi, problemlərin həlli yollarının araşdırılması, iştirakçı ölkələrin dövlət orqanları və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətli olacaq, səmərəli müzakirələrlə yadda qalacaqdır.

Forumun işinə uğurlar, hər birinizə möhkəm cansağlığı arzulayıram.

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 oktyabr 2014-cü il.*

## Azərbaycan Prezidentinin Fransaya işgüzar səfəri

***Oktyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransaya işgüzar səfər edib. Yelisey sarayında dövlətimizin başçısını Fransa Respublikasının Prezidenti Fransua Olland qarşılayıb. Sonra hər iki prezident arasında görüş olub.***



Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Enerji, aerokosmik sənaye, hərbi-texniki, təhsil, metro inşaatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanıb, «Cənub» dəhlizi enerji layihəsinin reallaşması ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların vəziyyəti, münaqişənin beynəlxalq hüquq normalarına əsasən, bununla bağlı indiyədək qəbul edilmiş sənədlərə uyğun ədalətli həlli ətrafında fikir mübadiləsi aparılıb. Münaqişə ilə bağlı status-kvonun dəyişilməsinin, işğal olunmuş ərazilərin azad edilməsinin zəruriliyi vurğulanıb.

Fransaya işgüzar səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə görüşü olub. Sonra hər iki prezidentin ayrılıqda görüşü təşkil olunub. Daha sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə prezidentlər yenidən bir araya gəliblər.

Oktyabrın 27-də Fransa Respublikasının Prezidenti Fransua Ollandın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə birgə görüşü keçirilib.

Görüşlərdən sonra Fransa Prezidenti Fransua Olland tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin şərəfinə şam yeməyi verilib.

# Azərbaycan - Litva münasibətləri yüksək inkişaf səviyyəsindədir

*Oktyabrın 22-də Şəmkirdə Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 4-cü iclası və Azərbaycan - Litva biznes-forumu keçirilmişdir.*



İclasda çıxış edən vergilər naziri, Hökumətlərarası Komissiyanın həmsədri Fazil Məmmədov komissiyanın fəaliyyətinin Azərbaycan və Litva arasında iqtisadi əməkdaşlığın genişlənməsində xüsusi əhəmiyyətini vurğulayaraq, əlaqələrimizin uğurla inkişaf etdiyini, 2014-cü ilin yanvar-iyun aylarında ticarət dövriyyəsinin həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 1,9 dəfə artaraq 25,1 mln. ABŞ dollarına çatdığını bildirmişdir. Hökumətlərarası Komissiyanın son iclasından ötən müddət ərzində görülmüş işlər barədə məlumat verən Fazil Məmmədov qeyd etmişdir ki, bu dövrdə ölkələrimizin dövlət və hökumət qurumlarının, işgüzar dairələrin nümayəndələrinin iştirakı ilə çoxsaylı səfərlər, görüşlər, tədbirlər keçirilmiş, ikitərəfli əlaqələr genişlənmişdir. Xüsusilə, gənclər və idman, eləcə də mədəniyyət və turizm sahələrində əməkdaşlıq daha intensiv inkişaf etmişdir. Hər iki ölkənin gənclərinin qarşılıqlı səfərləri təşkil edilmiş, müxtəlif sərgilər keçirilmişdir. Litvalı ekspertlər Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Azərbaycanın turizm potensialının gücləndirilməsi ilə bağlı tvinninq layihəsində yaxından iştirak etmiş, turizm zonalarının yaradılması və idarə olunmasına dair geniş təcrübə mübadiləsi aparılmışdır.

F.Məmmədov ölkələrimiz arasında çoxtərəfli formatda da münasibətlərin yüksək səviyyədə olduğunu bildirmiş, məhz Litvanın Avropa Şurasında sədrliyi dövründə - 2013-cü ilin noyabr ayında Vilnüsdə keçirilən Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların sadələşdirilməsinə dair razılaşma imzalanmasının mühüm bir hadisə olduğunu qeyd etmişdir.

Hökumətlərarası Komissiyanın Litva tərəfdən həmsədri, Litva Respublikasının xarici işlər naziri Linas Linkeviçius ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edərək, müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində komissiyanın fəaliyyətini müsbət dəyərləndirmişdir. Litva ilə Azərbaycan arasında əlaqələrin inkişafı üçün böyük potensialın olduğunu vurğulayan nazir iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsinin, digər sahələrdə də ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin vacibliyini bildirmişdir.

Sonra komissiya üzvləri gündəlikdə duran məsələlər ətrafında müzakirələr aparmış, müvafiq təqdimatlarla çıxış etmişlər. Tərəflər hər iki ölkənin iqtisadi vəziyyəti və ikitərəfli münasibətlərin inkişaf perspektivləri, müqavilə-hüquq bazasının inkişafı, energetika, kənd təsərrüfatı və ekologiya, gənclər və idman, mədəniyyət və turizm, təhsil və elm, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, gömrük, səhiyyə sahələrində, eləcə də Azərbaycan və Litvanın regionları arasında əməkdaşlıq məsələləri ətrafında geniş müzakirələr aparmışlar.

**Davamı 2-ci səhifədə**

2 Vergilər Nazirliyində BVF-nin nümayəndə heyəti ilə görüş

3 Biliklərə əsaslanan vergi inzibatçılığı uğurlu nəticələr əldə etməyə imkan verir

4 İKT sektorunun inkişafı günün reallığıdır

5 Nəzarət-kassa aparatlarından hər kəsin yararlanması vacibdir

# Azərbaycan - Litva münasibətləri yüksək inkişaf səviyyəsindədir

Əvvəli 1-ci səhifədə



İclasın sonunda Azərbaycan və Litva arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 4-cü iclasının yekunlarına dair Protokol imzalanmışdır. Sənədi komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədov və Litva Respublikasının xarici işlər naziri Linas Linkeviçius imzalamışlar.

Sonra Hökumətlərarası Komissiyanın iclası çərçivəsində 8-ci Azərbaycan-Litva biznes forumu da keçirilmişdir. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, sənaye, tikinti, maliyyə, İKT, energetika, səhiyyə və s. sahələrdə fəaliyyət göstərən 70-ə yaxın iş adamı iştirak etmişdir.

Açılış nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov forum iştirakçılarına Azərbaycandakı investisiya mühiti barədə məlumat vermiş, ölkəmizdə makroiqtisadi sabitliyin mövcud olduğunu, iqtisadiyyatın davamlı inkişaf etdiyini, yaradılan əlverişli biznes mühitinin iş adamları arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaratdığını diqqətə çatdırmışdır. Vergilər naziri qeyri-neft sektorunun inkişafına xüsusi önəm verildiyini və bu sahədəki mövcud potensialı nəzərə alaraq, biznes forumunda iştirak edən iş adamlarını Azərbaycan sahibkarları ilə fəal əməkdaşlığa dəvət etmişdir.

Litva Respublikasının xarici işlər naziri Linas Linkeviçius belə biznes-forumların təşkilinin ənənəyə çevrildiyini vurğulayaraq bildirmişdir ki, coğrafi baxımdan ölkələrimiz arasında məsafə kifayət qədər böyük olsa da, bu, əməkdaşlığa mane olmur və yeni tərəfdaşlıq sazışlərinin əldə olunması tərəflərin qarşılıqlı investisiyalarda maraqlı olduğunun göstəricisidir. İnformasiya texnologiyaları, maliyyə, tikinti, enerji, elektronika, nəqliyyat və logistika sektorlarında böyük biznes əlaqələrinin qurulması üçün geniş imkanlar olduğunu diqqətə çatdıran Linas Linkeviçius qeyd etmişdir ki, Litva-Azərbaycan Hökumətlərarası Komissiyası ikitərəfli əlaqələrin inkişafında və hökumət səviyyəsində biznes prioritetlərinin dəstəklənməsində səmərəli fəaliyyət göstərir.

Biznes-forumda Azərbaycan və Litvanın iqtisadi inkişafı, investisiya imkanları və əməkdaşlıq potensialı barədə ətraflı məlumat verilmiş, hər iki tərəfdən müxtəlif layihələrin, o cümlədən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təqdimatları keçirilmişdir. Forum iş adamları arasında yeni əməkdaşlıq imkanlarının müzakirə edildiyi ikitərəfli görüşlərlə başa çatmışdır.

**Elbrus CƏFƏRLİ**

## Vergilər Nazirliyində BVF-nin nümayəndə heyəti ilə görüş

*Oktyabr ayının 24-də Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiya rəhbəri Raca Almarzoqinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş zamanı vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, 2014-cü ildə aparılan uğurlu iqtisadi siyasət barədə məlumat vermiş, bu siyasətin ölkəmizin vergi sistemi üçün müsbət nəticələri, vergi sisteminin dinamik inkişafına təsiri barədə danışmışdır.*



Bildirilmişdir ki, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması nəticəsində qeyri-neft sektorunda dinamik artım təmin edilmiş, bu da ölkədə vergi daxilolmalarının artımına müsbət təsir göstərmişdir.

Vergilər nazirinin müavini Azərbaycanın vergi sistemində aparılan modernləşmə prosesi, texnoloji imkanların genişləndirilməsi, vergi inzibatçılığı və elektron hökumət quruculuğu istiqamətində əldə edilən əhəmiyyətli uğurları qeyd etmişdir.

BVF missiyasının rəhbəri Raca Almarzoqi Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi istiqamətində texniki imkanların genişləndirilməsi, vergi sistemi və inzibatçılığının rəqabət qabiliyyətliliyinin təmin edilməsi, iqtisadiyyatın strukturunun formalaşması, innovasiyaların dəstəklənməsi siyasətində vergilərin stimullaşdırıcı rolunun artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirmişdir.

Görüşdə 2014-cü ildə vergi daxilolmaları üzrə proqnozların icrası və 2014-2015-ci illər üçün Vergilər Nazirliyi üzrə proqnoz göstəriciləri, qeyri-neft sektorundan vergi daxilolmalarının artım templərinin davamlı olması üçün təşəbbüslər, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər və s. barədə fikir mübadiləsi aparılmış, missiya üzvlərinin sualları cavablandırılmışdır.

## Müraciətlərin sayı artır, şikayətlərin sayı isə azalır

*2014-cü ilin ilk doqquz ayında vergi orqanlarına 75373 müraciət daxil olmuşdur ki, onlardan da 98,4%-i ərizə, 1,4%-i şikayət, 0,2%-i təklif olmuş, 215 şikayətin icrası xüsusi nəzarətə götürülmüşdür.*

Müraciətlərin 32,8%-i kameral vergi yoxlamaları, 32%-i müxtəlif arayışların alınması, 14%-i səyyar vergi yoxlamaları, 5,7%-i vergi borcları, 0,2%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 15,2%-i isə digər məsələlərlə bağlıdır.

Ümumilikdə müraciətlərin 75,8%-i müsbət həll olunmuş, 15,5%-i üzrə müvafiq izahatlar verilmiş, 5,6%-i əsassız sayılmış, 1,4%-i qismən həll olunmuş, 0,7%-i aidiyyəti üzrə göndərilmiş, 1%-i isə icradadır. Şikayətlərin 38,6%-i üzrə müvafiq izahatlar verilmiş, 37,9%-i əsassız sayılmış, 13,7%-i müsbət həll olunmuş, 3,9%-i aidiyyəti üzrə göndərilmiş, 0,7%-i qismən həll olunmuş, 5,2%-i isə icradadır.

Cari ilin 9 ayı ərzində nazirliyin aparatına 6507 müraciət, o cümlədən 5700 ərizə, 788 şikayət, 19 təklif daxil olmuş, 97 şikayətin icrası xüsusi nəzarətə götürülmüşdür. Bu müraciətlərin ümumi sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 58,2% artmış, şikayətlərin faktiki sayı isə 6,3% azalmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin aparatına 260 müraciət, o cümlədən 140 ərizə, 120 şikayət daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə belə müraciətlərin ümumi sayı 13,3%, ərizələrin sayı 17,2%, şikayətlərin sayı isə 8,4% azalmışdır.

Doqquz ay ərzində nazirliyin aparatının müvafiq struktur bölmələrinin rəhbərləri və ya digər vəzifəli şəxsləri tərəfindən 692 vətəndaş qəbul edilərək onlara konkret kömək göstərilmiş və ya müvafiq izahatlar verilmişdir. Qəbul edilmiş vətəndaşların müraciətlərinin 75,6%-i maddi yardım almaq, şəxsi və ya digər məsələlərlə, 17,6%-i vergi orqanlarında işə qəbul olunma, 4,6%-i vergi orqanlarında iş yerlərinin dəyişdirilməsi, 2,2%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlə əlaqədar olmuşdur.

Yanvar-sentyabr ayları ərzində vergilər naziri tərəfindən Mingəçevir, Sabirabad, Göyçay, Xaçmaz və Zaqatala şəhərlərində ümumilikdə 216 nəfər vətəndaş qəbul edilmişdir. Keçirilmiş qəbullarda təqdim olunmuş müraciətlərdən 115-i vergi qanunvericiliyi və inzibatçılığı, 28-i işə qəbul və iş yerinin dəyişdirilməsi, 73-ü isə kredit alınması, maddi yardımın göstərilməsi, şəxsi və ya digər məsələlərlə bağlı olmuşdur. Qəbul zamanı edilən müraciətlərin 127-si müsbət həll olunmuş, 68-i barədə müvafiq izahat verilmiş, 21-i baxılması üçün aidiyyəti üzrə digər dövlət orqanlarına göndərilmişdir.

## Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

Oktyabrın 23-də 2 saylı ƏVD-nin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Abşeron rayonu, Xırdalan şəhəri, ev 69 ünvanda yerləşən, «Azərpark» MMC-yə məxsus sabun və yuyucu tozların istehsalı zavodunun fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 28887 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək məqsədilə istehsal obyektində əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və obyektdəki 26600 manat dəyərində sabun istehsal edən qurğu müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Həmin gün Sumqayıt şəhərindəki Üzvi-sintez zavodunun ərazisində yerləşən, «Leyla-R» MMC-yə məxsus polietilen örtük istehsalı ilə məşğul olan sexdə də əmlakın siyahıya alınması tədbiri keçirilmişdir. Vergi ödəyicisinin 3507 manatlıq vergi borcunun təmin edilməsi məqsədilə istehsal obyektindəki 3400 manat dəyərində polietilen paketlər müvafiq qaydada siyahıya alınmışdır. Sumqayıt şəhəri, 6 mkr., ev 1 ünvanda yerləşən, fiziki şəxs Ələkbərov Rəşid Ramiz oğluna məxsus kafedə isə vergi ödəyicisinin 2260 manat məbləğində vergi borcunun ödənilməsini təmin etmək üçün obyektdəki 1880 manat dəyərində məişət texnikası müvafiq qaydada siyahıya alınmış, borcun qalan hissəsi yerindəcə ödənilmişdir.

Oktyabrın 24-də 3 saylı ƏVİ-nin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Şabran şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 4, mənzil 7 ünvanda yerləşən, fiziki şəxs Kərimova Firuzə Tacəddin qızına məxsus alkoqollu içkilər və tütün məmulatlarının satıldığı mağazada əmlakın siyahıya alınması tədbiri keçirilmişdir. Vergi ödəyicisinin 1680 manat məbləğində vergi borcunun ödənilməsini təmin etmək məqsədilə mağazada 1292 manat dəyərində spirtli içkilər və tütün məmulatları müəyyən edilmiş qaydada siyahıya alınmış, borcun qalan hissəsi yerindəcə ödənilmişdir.

Həmin gün vergi əməkdaşları Qusar şəhəri, Qusar-Quba yolunun 1-ci km-də yerləşən, fiziki şəxs Tağıyev Elçin Ənvər oğluna məxsus «Ay işığı» restoranında da əmlakın siyahıya alınması tədbiri keçirmişlər. Vergi ödəyicisinin 1348 manat dəyərində vergi borcunun ödənilməsinin təmin edilməsi məqsədilə restorandakı 1400 manatlıq məişət avadanlığı müvafiq qaydada siyahıya alınmışdır.

## Vergilər Nazirliyinin nümayəndə heyəti Çində işgüzar səfərdədir

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovun rəhbərlik etdiyi nümayəndə heyəti «Çin Xalq Respublikasının vergi sistemi» mövzusunda təşkil olunan beynəlxalq seminarda iştirak edir.*

Seminarda iştirak etdikləri seminarda Azərbaycan tərəfini maraqlandıran bütün məsələlər əhatə olunacaqdır.

Tədbirdə ölkəmizi təmsil edən Natiq Şirinov bildirmişdir ki, Vergilər Nazirliyinin 18 nəfərdən ibarət nümayəndə heyətinin bu seminarda geniş tərkibdə işti-




Seminar Çin iqtisadiyyatı və vergi sisteminin əsasları, Çində transfert qiymətqoyma, elektron ticarətə vergi nəzarətinin təşkili, nağdsız əməliyyatların stimullaşdırılması, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi və s. mövzuları əhatə edəcəkdir.

Oktyabrın 26-da seminarın rəsmi açılışında ÇXR-in Fujian əyalətinin Xarici Əlaqələr Ofisinin baş direktor müavini cənab Li Honq qeyd edib ki, Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr günbəgün inkişaf etməkdədir. Hazırda bu əlaqələrin qurulması və daha da gücləndirilməsi istiqamətində mühüm addımlar atılmaqdadır. İki ölkə arasında ikiqat vergitutmanın aradan qaldırılması sahəsində saziş imzalanmışdır. Bildirilmişdir ki, Çin vergi administrasiyasının təcrübəli əməkdaşları işrakı Azərbaycanla Çin arasında qurulmuş sıx dostluq və əməkdaşlıq əlaqələrinin daha bir bariz nümunəsidir. Azərbaycan Vergilər Nazirliyi xarici ölkələrin vergi administrasiyaları ilə ikitərəfli münasibətlərə böyük önəm verir. Avropa dövlətlərinin vergi administrasiyaları ilə çox səmərəli əməkdaşlıq əlaqələri qurulmuşdur ki, bunun sayəsində Azərbaycanın vergi sistemində aparılan islahatlar zamanı ən yaxşı beynəlxalq təcrübələrdən geniş istifadə olunmuşdur.

N.Şirinov qeyd etmişdir ki, hazırda Vergilər Nazirliyi Şərq ölkələrinin vergi sahəsində təcrübələrinin öyrənilib təhlil edilməsinə xüsusi əhəmiyyət verir və iştirak etdiyimiz seminarı bu sahədə çox əlverişli imkan hesab edirik.

Məlumat üçün bildirək ki, seminar noyabrın 13-dək davam edəcək.

## Əmək münasibətlərinə vergi nəzarəti tədbirləri

Muzdlu işə cəlb edilmiş şəxslərin hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə Vergilər Nazirliyi tərəfindən aparılan təsirli tədbirlərə, eləcə də işəgötürənlər arasında təbliğatın və maarifləndirmə işlərinin gücləndirilməsinə baxmayaraq, bəzi işəgötürənlər hələ də işçilərlə əmək müqavilələri bağlamadan və iş yerlərini rəsmiləşdirmədən vətəndaşları müxtəlif işlərin görülməsinə cəlb etməklə, mövcud qanunvericiliyin tələblərini kobud şəkildə pozurlar.

Vergilər Nazirliyi tərəfindən əmək münasibətləri sahəsində həyata keçirilən əməliyyat nəzarət tədbirləri nəticəsində aşkar edilmişdir ki, Binəqədi rayonunda Samir Sənan oğlu Zülfüqarova məxsus idman-əyləncə mərkəzinin tikintisində 20 nəfər, Səbail rayonu Badamdar qəsəbəsində Elxan Cəmi oğlu Qarahmədova məxsus otel tikintisində 27 nəfər Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən müxtəlif işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmişlər. Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən müxtəlif işlərin yerinə yetirilməsinə cəlb edilmiş işçilərdən alınmış izahatlardan aydın olmuşdur ki, onların tikinti obyektlərində xeyli müddət işləmələrinə baxmayaraq, heç biri ilə əmək müqaviləsinin hüquqi qüvvəyə minməsi ilə bağlı rəsmiləşdirmə işləri aparılmamışdır. Bundan əlavə, hər iki şəxsin vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu da müəyyən edilmişdir. Faktla bağlı materiallar Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işinin başlanması məqsədilə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin görülməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunda nəzərdə tutulan ən sərt tədbirlər görüləcəkdir.

# Biliklərə əsaslanan vergi inzibatçılığı uğurlu nəticələr əldə etməyə imkan verir

*Vergilər nazirinin müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Asəf Əsədovun «Vergilər» qəzetinə müsahibəsi*



***- Asəf müəllim, məlum olduğu kimi, 2011-2013-cü illərdə Azərbaycanda Niderland Krallığının Vergi Administrasiyası ilə birlikdə elektron audit üzrə tvinninq layihəsi reallaşdırıldı. E-auditin tətbiqi vergi sistemində hansı mühüm dəyişikliklərlə nəticələnib?***

- Azərbaycanın vergi sistemi üçün çox mühüm əhəmiyyət daşıyan «Elektron audit» Tvinninq layihəsinin başa çatması ilə əlaqədar 2013-cü ilin may ayında ictimaiyyət üçün təqdimetmə mərasimi keçirildi. Bundan sonra pilot layihələrin uğurlu nəticəsi kimi nazirliyin e-audit üzrə treninq proqramında iştirak etmiş bir neçə əməkdaşının təmsil olunduğu e-audit şöbəsi təşkil edildi. Xüsusi Rejimli Vergi Xidməti Departamentində müvafiq struktur dəyişiklikləri aparılarkən ayrıca struktur vahidi kimi audit idarəsi, idarənin tərkibində isə elektron audit şöbəsi yaradıldı. Tvinninq layihəsi başa çatandan indiyədək elektron audit üsulu ilə 25 yoxlama həyata keçirilib və ənənəvi üsullarla aparılan yoxlamalarla bunun fərqi müqayisə edilib.

Nəticə isə bundan ibarətdir ki, əlavə hesablanmış vergilər dəfələrlə artıb, yoxlamaya sərf edilən orta vaxt müddəti isə 1,5 dəfə azalıb. Həyata keçirilmiş səyyar yoxlamalarda sübut olundu ki, e-audit texnologiyası hesabına daha çox sayda yoxlama aparmağa və yoxlamalar vasitəsilə 90-95% ehtimalı ilə vergidən yayınma hallarını aşkar etməyə real imkanlar yaranır.

***- E-audit texnologiyasının tətbiqini genişləndirmək üçün tələb olunan başlıca amil nədir?***

- Bunun üçün yeni e-auditorlar hazırlamaq tələb olunur. Bu istiqamətdə e-audit, insan resursları və İT sahələrinin modernizasiya məsələləri üzrə müşavir xidməti bölməsinin əməkdaşlarının və e-audit şöbəsinin birgə iştirakı ilə tədbirlər həyata keçirilib. 2014-cü ilin yanvar ayından başlayaraq dörd ay ərzində e-audit üzrə xüsusi təlim materialları hazırlanıb. Bura Azərbaycanda elektron mühasibat proqram təminatlarından ən çox istifadə olunan 1C mühasibat proqramı üzrə metodiki rəhbərlik, elektron faylların alınması üzrə tövsiyələr və praktik misallar daxildir. Bundan əlavə, e-auditin əsasları üzrə metodik rəhbərlik, e-audit üçün istifadə olunan ACL proqram təminatının mənimsənilməsi üçün praktiki misallar əsasında 30-a yaxın videomaterial hazırlanıb. Bütün bu materiallar Xüsusi Rejimli Vergi Xidməti Departamentindən seçilmiş auditorlara təqdim olunub. Tədris-təlim proqramı xarakteri daşıyan həmin materiallarda həm nəzəri, həm praktiki əsaslar, həm də mürəkkəb texnologiyaların mənimsənilməsi üçün çoxlu sayda 3-5 dəqiqəlik videomisallar mövcuddur.

Özünətədris proqramına əsasən, bütün tədris-təlim materialları 2014-ci ilin may ayında bir ay ərzində materialları öyrənmək üçün bir qrup auditora verilib, sonradan iki ay ərzində iş yerlərində onlara təlim kursları (həftədə bir dəfə 3 saat praktik seminarlar) təşkil olunub. Nəticə olaraq, Xüsusi Rejimli Vergi Xidməti Departamentində təlim keçmiş auditorlar üçün elektron imtahanlar keçirilib. E-imtahanlara həm testlər, həm də praktiki misallar daxil edilmişdi və bu üsulla biliyin daha düzgün qiymətləndirilməsi mümkün oldu. Bu ilin sentyabr ayından imtahandan keçmiş yeddi nəfər auditor e-auditlə məşğul olmağa başlayıb və onlar e-audit şöbəsinin daha təcrübəli üç işçisi ilə birgə işləyirlər. Hesab edirəm ki, bu, müsbət təcrübədir və onun tətbiqinin genişlənməsi ciddi fayda verəcək.

Hazırda e-auditin tətbiqi üçün işlər davam etdirilir. Fikrimcə, e-auditorların sayı artdıqca səyyar yoxlamalarda e-audit metodologiyasından daha çox istifadə olunacaq. Eyni zamanda, bu iş sistemləşdirilir. Dünyada müasir audit işçilərin ixtisaslaşması üzərində qurulur. Bir qrup auditor daha çox təcrübəli sahə bilikləri olan ixtisaslaşmış mütəxəssislərdir, digərləri isə elektron auditorlardır ki, onlar müasir təhlil üsulları ilə işləməyi bacarırlar.

E-auditlə bağlı bir vacib məsələyə də toxunmaq istərdim. Müasir auditin əsas əhəmiyyəti düzgün planlaşdırmadır. Bunun üçün mütləq qaydada vergi ödəyicilərinə bildirişlərin göndərilməsi ilə bağlı onlardan əvvəlcədən məlumat toplanılmaldır. Məqsəd - biznesin nədən ibarət olduğunu, daxili nəzarətin və mühasibat sisteminin necə işlədiyini, hansı tipdə və formatda elektron faylların əldə edilməsinin mümkün olduğunu öyrənməkdir. Buna görə bildirişdə konkret olaraq göstərilə bilər ki, hansı elektron fayllar tələb olunur.

E-auditin ilkin planlaşdırılması nə qədər dəqiq və mükəmməl aparılarsa, nəticə də bir o qədər dəqiq olur. Biz bu istiqamətdə fəal iş aparırıq, o cümlədən ACL proqram təminatının istifadəsinə əsaslanan 100-ə yaxın audit testindən ibarət kitabxana hazırlanır, risklərə görə spesifik sahələr üzrə ən vacib yoxlama testləri və ümumi testlər tərtib olunur ki, e-auditin tətbiqi sistemləşdirilsin və asanlaşsın.Yaxın gələcəkdə bu, imkan verəcək ki, ən yüksək beynəlxalq keyfiyyət standartları səviyyəsində səyyar vergi yoxlamalarının aparılması mümkün olsun. Nəzərə almaq lazımdır ki, bu, çox mürəkkəb və çətin işdir.

***- Ötən ay Vergilər Nazirliyi Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsinin tətbiqinə start verdi. Yeni layihənin əsas mahiyyəti nədən ibarətdir və bundan hansı nəticələr gözlənilir?***

- E-audit bir çox ölkələrdə tətbiq olunur. Xarici ölkələrdə bu sahədə çalışan auditorların səviyyəsi çox yüksəkdir. Biz e-auditlə bağlı öz üsullarımızın tətbiqi üçün işçilər hazırlanmasına başlamışıq. Qeyd etdiyim kimi, e-audit üzrə özünətədris proqramı çərçivəsində iş yerində treninqlər təşkil etdik. Əməkdaşları işlərindən ayırmamaq şərti ilə sırf praktiki biliklərin mənimsənilməsində çox böyük uğur qazandıq. Müqayisə üçün deyə bilərəm ki, Hollandiyanın e-audit mütəxəssislərinin hazırlığı üçün xüsusi proqram var, üç ay işdən ayrılmaqla işçilərə treninq mərkəzində dərslər keçilir, sonradan onlar təcrübəli e-auditorların yanında altı ay müddətində işləyib təcrübi bilkilər əldə edirlər. Amma biz başqa üsulla eksperiment apardıq. Birinci mərhələdə auditorlara özünətədris proqramı çərçivəsində asan başa düşülən, misallara əsaslanan daha praktiki yönümlü rəhbərliklər və videomateriallar təqdim edildi. Bu materiallarla yaxından tanış olduqdan sonra iki ay ərzində həftədə 3 saat dərs keçməklə, 60 saat vaxt müddətində işçilərə e-audit texnologiyası üzrə təcrübi şəkildə işləməyi öyrədə bildik.

Fikrimcə, nazirliyin iqtisadi təhlil, audit, borcların alınması və digər strukturlar üzrə müxtəlif sahələrdə çalışan işçilərini bu prosesə cəlb edərək onları öyrətmək olduqca vacibdir. Ona görə də insan resurslarının inkişafı ilə bağlı yeni Tvinninq layihəsinin həyata keçirilməsinə qərar verildi. Avropa İttifaqı tərəfindən elan olunmuş tenderə əsasən, Fransa və İspaniyanın vergi administrasiyaları qalib seçildi. Baş icraçı İspaniyanın vergi administrasiyası, partnyoru isə Fransanın müvafiq qurumudur. Bu il sentyabrın 1-dən start verilən layihənin geniş təqdimatı oldu.

***- «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsini zəruri edən əsas faktorlar nədən ibarətdir?***

- Məlum olduğu kimi, ildən-ilə mürəkkəbliyi artan biznes əməliyyatları həyata keçirilir, e-əməliyyatların sayı, e-ticarətin həcmi genişlənir. Bütün bunlarla bağlı Vergilər Nazirliyində çalışan insan resurslarının da müasir tələblərə cavab verməsi tələb olunur. Məsələ ondadır ki, texniki biliklər, peşəkar bilik və bacarıqların, özünüidarənin rolu getdikcə artır və bu amillər hər bir işçinin fəaliyyətində mühüm yer tutmalıdır. İşçinin peşəkar səviyyəsi yüksək olarsa, daha səmərəli iş görər. Sıravi işçilərlə yanaşı, şöbə rəisləri, idarə rəhbərləri də müasir menecment biliklərini mənimsəməlidirlər.

***- Layihənin həyata keçirilməsi üçün hansı konkret addımlar atılır?***

- Yeni tvinninq layihəsi çərçivəsində üç komponentə xüsusi önəm vermişik. Birincisi, insan resurslarının inkişafı ilə bağlı uzunmüddətli strategiyanın hazırlanması başlıca prioritetlərdəndir. Strategiya 2015-2020-ci illər üçün nəzərdə tutulur. Həmin sənədə əsasən, hər il üzrə ayrıca tədbirlər planı hazırlanacaq. Planda icra meyarları və icraçılar göstəriləcək, görülən işlərin və nəticələrin monitorinqi və qiymətləndirilməsi öz əksini tapacaq.

İkinci istiqamət insan resurslarının idarə edilməsi üzrə nazirliyin mövcud normativ bazasının yeniləşdirilməsidir. Hazırda nazirliyin əsas normativ sənədi «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»dir. 2001-ci ildə qəbul edilən sənədin ciddi şəkildə yenilənməsi tələb olunur. Bu sahədə ən yaxşı beynəlxalq təcrübəni öyrənməliyik. Layihənin 3-cü əsas istiqaməti - tədris-təlim sisteminin modernləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Başlıca hədəflər internet təməlli özünətədris xidmətləri həyata keçirməyə imkan verən onlayn texnologiyaların tətbiqi (e-tədrisin təşkili və daimi kontent dəstəyi), vergi administrasiyasının ehtiyaclarına uyğun tədris-treninq proqramlarının və kursların hazırlanması, praktiki məşğələlərin təşkilidir. Bu məqsədlə tədrisin müasir bilik texnologiyalarına əsaslanmaqla bilik menecerləri vasitəsilə aparılması planlaşdırılır. Nazirliyin işçiləri tərəfindən bu mexanizmi həyata keçirə bilən şəxslər seçilməlidir ki, əsasən, bilik menecmentin tətbiqi ilə məşğul olsunlar. Yəni bu şəxslər cari işlərlə yüklənməli deyillər, onların əsas vəzifələri müasir beynəlxalq təcrübəni öyrənmək, onun əsasında nazirliyin konkret struktur bölmələrinin ehtiyaclarına yuğun özünətədris proqramları və iş yerində treninqlərin təşkili və qiymətləndirilməsi olmalıdır. Tvinninq layihəsi çərçivəsində bu şəxslər üçün xüsusi treninq keçirilməli, bilik menecmentinin, elektron tədrislə bağlı proseslərin öyrənilməsi təmin edilməlidir.

***- Bu günlərdə nazirlikdə Tvinninq layihəsinin ilk missiyasının tədbiri keçirildi. Bu barədə nə deyə bilərsiniz?***

- Oktyabr ayının 20-dən 24-dək davam edən seminarlarda nazirliyin vergi siyasəti, hüquq, insan resursları və beynəlxalq idarələrinin əməkdaşları iştirak etdilər. Onlar beynəlxalq təcrübədə bizim üçün maraq doğuran insan resurslarını idarəetmə sistemi ilə əlaqədar ətraflı məlumatlar aldılar. Fransanın bu sahədəki təcrübəsini təhlil etdik, Azərbaycanla müqayisəsini nəzərdən keçirdik. Növbəti missiyada İspaniyanın təcrübəsi müzakirə olundu.

Ümumiyyətlə, tvinninq layihəsinin məqsədi ona yönəldilib ki, gələcəyin tələblərinə uyğun olaraq biliklərə əsaslanan vergi inzibatçılığını inkişaf etdirək. Bunun üçün müasir texnologiyalarla yanaşı, müasir biliklərə və bacarıqlara malik peşəkar vergi işçilərinin hazırlanması və onlara dəstək verilməsi tələb olunur. Belə olarsa, vergi ödəyiciləri görəcəklər ki, onlara göstərilən yüksək keyfiyyətli xidmətlərlə yanaşı, vergidən yayınmanı sübut etmək üçün bizim çox böyük, güclü potensialımız, ciddi nəzarət sistemimiz var. Bütün bunların vergilərin könüllü ödənilmə səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərəcək.

***Müsahibəni hazırladılar:***
**Elbrus CƏFƏRLİ**
**Fəxriyyə CƏBRAYILOVA**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Vergitutma bazasının müəyyən olunması

Bazar gəliri konsepsiyasına görə, vergiyə cəlb olunan gəlirin və fiziki şəxsdən gəlir vergisinin vergitutma bazasının müəyyən olunması ümumi qaydalara əsaslanır:

♦ Gəlir vergisinin vergitutma bazası vergi ödəyicisinin həm ölkə daxilindəki, həm də ölkə xaricindəki gəlirlərinin (dünya gəlirlərinin) cəmi kimi müəyyən olunmalıdır. Bu halda ikiqat vergitutmaya yol verməmək üçün normativ sənədlərin tələbləri nəzərə alınmalıdır (misal üçün, gəlirlərə və əmlaka nəzərən ikiqat verginin aradan qaldırılması haqqında müqavilə).

♦ Fərdin vergi tutulan gəliri bütün həyatı boyu əldə etdiyi gəlirləri əhatə etməlidir. Bu halda fərdin həyatı üçün zəruri olan gəlirlər vergiyə cəlb edilən gəlirdən çıxılmalı, qalan hissə isə vergiyə cəlb olunmalıdır.

♦ Gəlir vergisi üçün vergitutma bazası yalnız xalis gəlir ola bilər, yəni gəlirin əldə olunması ilə bağlı çəkilən bütün zəruri xərclər gəlirdən çıxılmalıdır.

♦ Yalnız bazar gəliri, yəni fərdin mövcudluğu üçün zəruri olaraq istehlak məqsədilə nəzərdə tutulan gəlir qədər azaldılan gəlir vergiyə cəlb oluna bilər.

Göründüyü kimi, bu qaydalar kifayət qədər sadədir, iqtisadi, fizioloji və sosioloji əsaslara malikdir. Lakin təcrübədə onların həyata keçirilməsi və tələblərin gözlənilməsi bir sıra problemlərlə bağlıdır.

Misal üçün, bir çox ölkələrin vergi qanunvericiliklərində vergi tutulan gəlirin vergitutma bazasını, yəni xalis gəliri müəyyən etmək üçün bir sıra məhdudiyyətlər, istisnalar və s. kimi normalar nəzərdə tutulur. Bu, əsasən onunla bağlıdır ki, vergi qanunvericiliyində nəzərdə tutulan hər bir istisna eyni zamanda həm vergi ödəyiciləri arasında diskriminasiya yaradır, həm də vergidən yayınma üçün imkanlar açır. Nəticədə bu istisnalardan istifadə etmək hüququ olmayan vergi ödəyiciləri də istisnaların verdiyi şəraitdən istifadə edərək vergidən yayınırlar. Bu halda, bir tərəfdən, vergi nəzarətini həyata keçirən vergi orqanlarının inzibatçılıq xərcləri artır, digər tərəfdən isə külli miqdarda səmərəsiz vaxt sərf olunur.

Ona görə də təcrübədə bu halda məcmu gəlirin müəyyən olunması əvəzinə hər bir gəlir mənbəyinə ayrılıqda baxılması zərurəti yaranır.

Ümumi halda bu gəlirlər iki qrupa ayrılır:

- Sahibkarlıq (haqqı ödənilən əməyə görə olmayan gəlir);
- Haqqı ödənilən əməyə görə olan gəlir.

Bu qruplar üzrə gəlirin əldə olunma xarakteri və şəraiti müxtəlif olduğundan, onlarda tətbiq olunan istisna və çıxılmalar da müxtəlifdir. Çünki sahibkarlıq fəaliyyətindən gəlir halında vergiyə cəlb olunan gəliri müəyyən etmək üçün uçot sistemində istifadə edilən sənədlərlə təsdiq olunmuş və qanunvericiliklə çıxılmasına yol verilən bütün xərclər nəzərə alınmalıdır.

Haqqı ödənilən əməyə görə gəlir üzrə isə bu gəlirin əldə olunması zamanı fərdin çəkdiyi xərclər nəzərə alınmaqla vergiyə cəlb olunan gəlir müəyyən edilir. Müxtəlif ölkələrin vergi qanunvericiliyində belə xərclərin strukturu da müxtəlifdir. Ümumi şəkildə onları aşağıdakı kimi təsnifləşdirmək olar:

- iş geyimi (forması) ilə bağlı xərc;
- həmkarlar ittifaqına üzvlük haqqı;
- pensiya fonduna ödənişlər (icbari olmayan sığorta ödənişləri, bədbəxt hadisə ilə bağlı sığorta ödənişləri);
- pensiya sığortası üçün üzvlük haqqı;
- iş yerinə gəlməklə bağlı nəqliyyat xərci;
- qidalanmaqla bağlı əlavə xərclər və s.

Qeyd olunan güzəştlər Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsində verilib və tətbiqinə yol verilən güzəştlər üçün vergi tutulmayan minimum hədd və əhalinin müxtəlif kateqoriyaları, gəlir səviyyəsi və s. nəzərdə tutulub.

Qeyd etmək lazımdır ki, bu nəzəri tövsiyələrlə yanaşı, Azərbaycanın Vergi Məcəlləsində milli xüsusiyyətlər də nəzərə alınmışdır.

Beynəlxalq təcrübədə vergi qanunvericiliyi ilə yol verilən çıxılmalar aşağıdakı qruplara bölünür:

- Standart çıxılmalar;
- Xərc maddələrinə görə çıxılmalar.

Standart çıxılmalar vergi hesabatının sadəliyi üçün tətbiq olunur və bir çox əhali təbəqələrini əhatə edir. Xərc maddələrinə görə çıxılmalar isə əhalinin varlı təbəqələri üçün nəzərdə tutulur və daha ətraflı hesabatlılığı təmin edir.

## Vergi əməkdaşları üçün treninq keçirilib

*Ötən həftə Vergilər Nazirliyinin inzibati binasında işəgötürənlərlə fiziki şəxslər arasında əmək münasibətlərinin tənzimlənməsinə dair qanunvericilik sənədlərinə edilmiş dəyişikliklər, AVİS-də yaradılmış «Bildirişlər» pəncərəsi və AVİS-in müvafiq pəncərələrində edilmiş yeniliklər mövzusunda treninq keçirilmişdir.*

Operativ nəzarət idarəsi və Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsi tərəfindən Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti və Vergi Auditi departamentlərinin, Bakı Şəhər Vergilər Departamentinin, ərazi vergilər departamentləri və idarələrinin əməkdaşları üçün təşkil edilən treninqdə idarənin Operativ nəzarətin təşkili şöbəsinin rəisi, vergi xidməti müşaviri Vahid İsayev «Sahə təhkimçiləri tərəfindən yerinə yetirilən nəzarət işlərinin nəticələrinin AVİS-də yaradılmış «Müşahidə» pəncərəsinə daxiletmə imkanının yaradılması üçün «Sahə təhkimçisinin AVİS-də qeydiyyatı»nın aparılması», «Nəzarət tədbirinin həyata keçirilməsi zamanı vergi orqanının vəzifəli şəxslərinin tələblərinin yerinə yetirilmədiyi hallarda İnzibati Xətalar Məcəlləsinin 325-ci maddəsinə əsasən tərtib olunmuş protokolun AVİS-in müvafiq moduluna işlənməsi», «Aşkar edilmiş aksizsiz və ya saxta aksiz markası ilə markalanmış malların AVİSə daxil edilməsi», «Xronometraj metodu ilə müşahidənin təyin olunması üçün xidməti məruzənin yeni qaydada tərtibatı», «Gündəlik xronometraj müşahidələrin nəticələrinin AVİS-ə daxil edilməsi» qaydaları, eləcə də «Nəzarət tədbirinin keçirilməsi mümkün olmayan hallarda «Kargüzarlıq» altsistemində qeydiyyatdan keçmiş xidməti məruzənin daxil edilməsi pəncərəsi» barədə məlumat vermişdir.

İdarənin Operativ nəzarətin təşkili şöbəsinin dövlət vergi müfəttişi Rəşad Seyidli vergi orqanlarının əməkdaşları tərəfindən vergi yoxlaması materiallarının vergi ödəyicilərinə çatdırılması, həmin materiallara baxılmasının vaxtı və yeri barədə bildirişlərin və qəbul edilmiş qərarların vergi ödəyicilərinə sistem tərəfindən avtomatik hazırlanaraq göndərilməsi məqsədilə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yeni yaradılmış «Bildirişlər» pəncərəsi və bu pəncərələrdən istifadə qaydalarını treninq iştirakçılarına təqdim etmişdir.

«Saybernet» şirkətinin əməkdaşı Əfqan Orucovun təqdimatı «İşəgötürənlərlə fiziki şəxslər arasında əmək münasibətlərinin tənzimlənməsinə dair qanunvericilik sənədlərinə edilmiş dəyişikliklər» mövzusuna həsr olunmuşdur. Təqdimatda treninq iştirakçıları «Asan imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyatı, «Asan imza»nın elektron xidmətlərə inteqrasiyası, əmək funksiyası və əmək şəraitinin şərtləri və digər məsələlər barədə məlumatlandırılmışlar.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

### Ləğv edilmiş müəssisənin vergi borcu

***Müəssisə ləğv edildikdə onun dövlət büdcəsinə vergilər üzrə borcu olarsa, həmin borc hansı qaydada ödənilməlidir?***

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə xitam verilməsi deməkdir, bu zaman onun hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmir. 60.1-ci maddədə göstərilir ki, hüquqi şəxsin ləğvi haqqında qərarla ləğvetmə komissiyası (təsviyəçi) təyin edilir, həmin məcəlləyə uyğun olaraq, ləğvetmə qaydası və müddətləri müəyyənləşdirilir, ləğvetmə prosesi başlayır.

Müəssisə ləğv edildikdə onun vergi öhdəliklərinin yerinə yetirilməsi qaydası Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 79-cu maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, ləğv edilən müəssisənin (təşkilatın) vergi öhdəliklərini onun pul vəsaitləri, o cümlədən müəssisənin (təşkilatın) əmlakının satışından əldə edilən gəlir hesabına ləğvetmə komissiyası yerinə yetirir. Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmadıqda, ləğvetmə komissiyası müəssisənin (təşkilatın) filiallarının digər struktur bölmələrinin və daimi nümayəndəliyinin vergi öhdəliklərini də yerinə yetirməlidir. Ləğv edilən müəssisənin (təşkilatın) filialının və ya digər ayrıca bölməsinin öhdəliklərini bilavasitə həmin ayrıca bölmənin daxil olduğu müəssisə (təşkilat), bu müəssisə (təşkilat) ləğv edildikdə isə həmin müəssisənin (təşkilatın) ləğvetmə komissiyası yerinə yetirir. Ləğv edilən müəssisənin (təşkilatın) pul vəsaiti, o cümlədən vergi öhdəliklərinin yerinə yetirilməsindən ötrü əmlakın satışından əldə edilən vəsait onun vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün kifayət etmədiyi halda, vergi öhdəlikləri üzrə qalan borc qanuna, nizamnaməyə və ya digər təsis sənədinə uyğun olaraq müəssisənin (təşkilatın) öhdəlikləri üçün onun iştirakçıları (təsisçiləri) birgə məsuliyyət daşıyırlarsa, həmin iştirakçılar (təsisçilər) tərəfindən ödənilməlidir.

Müəssisənin iflas olduğu hallarda vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir. Belə ki, «Müflisləşmə və iflas haqqında» Qanunun «Ödənişlərin növbəliliyi» adlanan 53-cü maddəsinə əsasən, borclunun əmlakını təşkil edən aktivlər aşağıdakı növbəlilik qaydasında bölünməlidir:

- birinci, iflas prosesinə çəkilən bütün məsrəflər və xərclər (o cümlədən müflisolmanın kütləvi informasiya vasitələrində elan edilməsi xərcləri, məhkəmə xərcləri, əmlak inzibatçısının və müvəqqəti əmlak inzibatçısının haqqı və xərcləri, habelə müflisolma məqamından sonra əmlak inzibatçısının qəbul etdiyi və ya davam etdirdiyi öhdəliklərdən irəli gələn tələblər) ödənilir;
- ikinci, borclunun işçilərinin onlara iş vaxtı dəymiş bədən xəsarətləri və ya ölüm halları barəsində tələbləri ödənilir;
- üçüncü, ödəmə qabiliyyəti olmayan borclunun işçilərinin müavinətləri, güzəştlər və əməkhaqqı barəsində tələbləri ödənilir, həm də bu tələblər borclunun müflisolma məqamından əvvəlki 6 ayadək müddətlə məhdudlaşdırılır;
- dördüncü, dövlət və yerli büdcəyə vergilər, məcburi dövlət sosial sığortasına ayırmalar ödənilir. Bu tələblər borclunun müflis elan olunması tarixindən əvvəlki bir il ərzində yaranmış öhdəlikləri əhatə edir;
- beşinci, təminatsız kreditorların tələbləri ödənilir;
- altıncı, borclu müəssisənin mülkiyyətçilərinin tələbləri ödənilir.

# İKT sektorunun inkişafı günün reallığıdır

***Ölkə başçısının 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası»nda müəyyən edilmiş əsas hədəfə çatmaq üçün növbəti on ildə qeyri-neft sektorunun inkişafı hesabına ümumi daxili məhsulun iki dəfə artırılması, İKT sektorunun həcminin 4-4,5 dəfə genişləndirilməsi, İKT-nin iqtisadi potensialının gücləndirilməsi, cəmiyyətin İKT ehtiyaclarının ödənilməsi məqsədi qarşıya qoyulmuşdur. İnformasiya və biliklərə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü yüksək texnologiyalar sektorunun inkişafı, investisiya cəlbediciliyinin yüksəldilməsi, ölkədə dünya səviyyəsinə uyğun elmtutumlu və yüksək texnoloji məhsulların yaradılması və onların tətbiqini təmin edən innovasiya sisteminin formalaşdırılması əsas məqsəd kimi müəyyən edilmişdir. Bu hədəflərə çatmaq vasitələrindən biri kimi, Azərbaycan Respublikası Prezidentinin 15 mart 2012-ci il tarixli sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu yaradılmışdır. Müsahibimiz fondun icraçı direktoru Elçin Zeynalovdur.***



***- Elçin müəllim, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu yaradılarkən qarşısına hansı məqsədlər qoyulub?***

- Fondun əsas məqsədi İKT sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bu sahəyə yerli və xarici investisiyaları cəlb etməkdir.

***- Fond İKT sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə hansı maliyyə mexanizmləri vasitəsilə və necə dəstək olur?***

- Fond İKT sahəsində elmi-tədqiqat işlərinin genişlənməsi, innovativ fəaliyyətin stimullaşması və istehsal yönümlü fəaliyyətin dəstəklənməsi kimi vacib məqsədlərə xidmət edir və bu məqsədlərə nail olmaq üçün maliyyə resurslarının cəlb edilməsini, həmin vəsaitlərdən səmərəli istifadə olunmasını həyata keçirir. Fond ölkə iqtisadiyyatında İKT sektorunun inkişafı ilə bağlı real nailiyyətlərin əldə olunması üçün sərəncamında olan vəsaitlər hesabına müvəkkil kredit təşkilatları vasitəsilə bu sahədə fəaliyyət göstərən sahibkarlara aşağı faizli, güzəştli şərtlərlə kreditlər ayırır, müsabiqə yolu ilə innovativ və tətbiqi elmi-texniki layihələrin qrant maliyyələşməsini təmin edir. İKT sektorunda beynəlxalq təcrübə və dünya iqtisadiyyatında müşahidə olunan inkişaf tendensiyalarını yaxından izləyən fond bu sahədə fəaliyyət göstərən milli sahibkarlığın inkişafına xüsusi diqqət göstərir. Bunun üçün yaxın perspektivdə müəssisələrin səhmlərinin və ya digər qiymətli kağızlarının əldə edilməsi yolu ilə bu müəssisələrə müddətli investisiya qoyuluşları, xarici və yerli investisiyaların cəlb olunması üçün sərmayələrin qorunmasına təminatın verilməsi kimi önəmli vasitələrin tətbiq olunması imkanları nəzərdən keçirilir. Fondun maliyyə dəstəyi ilə ölkədə müasir İKT sənayesinin təşəkkül tapacağı, innovativ «startap»ların, həmçinin sahə üzrə iri layihələr həyata keçirəcək sahibkarlıq subyektlərinin ölkədə «bilik iqtisadiyyatı»nın qurulmasına böyük töhfə verəcəyi şübhəsizdir.

***- Güzəştli kreditlər məsələsinə toxundunuz. İndiyədək sahibkarlıq subyektlərinə hansı həcmdə güzəştli kreditlər verilib və bu kreditləri əldə etməyin prosedur qaydası necədir?***

- Sahibkarlıq subyektləri fondumuzun vəsaiti hesabına güzəştli kreditlər almaq üçün müvəkkil kredit təşkilatlarına, yəni fondla əməkdaşlıq edən banklara müraciət edirlər. Layihələr bankların mütəxəssisləri tərəfindən təhlil edilir və müsbət qiymətləndirilənləri fonda təqdim olunur. Fond isə təqdim olunan layihələrin ekspertizasını həyata keçirir. Banklar fondun müsbət rəyini aldıqdan sonra kreditlərin sahibkarlara ayrılması haqqında son qərarı verir. Sahibkarlara kredit vəsaiti kiçikhəcmli olmaqla (10.000 manatdan 50.000 manatadək) 3 ilədək müddətə, ortahəcmli olmaqla (50.001 manatdan 500.000 manatadək) 5 ilədək müddətə, böyükhəcmli olmaqla (500.001 manatdan 5.000.000 manatadək) 10 ilədək müddətə kredit məbləğinin illik 5% (fond faizi 1%, bank faizi 4%-ə qədər) dərəcəsi ilə verilir. Qeyd etmək istərdim ki, indiyədək İKT sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə fond tərəfindən 900.000 manat məbləğində kredit vəsaiti verilib.

***- Kreditlərin təyinatı üzrə istifadəsinə nəzarət mexanizmi necədir?***

- Fondun vəsaiti hesabına verilən kreditlərin təyinatı üzrə istifadəsinə nəzarət müvəkkil kredit təşkilatları və zərurət olduğu halda, fond tərəfindən aparılan monitorinqlər vasitəsi ilə həyata keçirilir. Aparılan monitorinq zamanı güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə, müvəkkil kredit təşkilatı güzəştli kreditin və hesablanmış faiz borcunun vaxtından əvvəl ödənilməsini təmin edir.

***- Qrant müsabiqələri haqqında nə deyə bilərsiz və bu müsabiqələrdə kimlər iştirak edə bilərlər?***

- Qeyd etdiyim kimi, fond İKT sahəsində sahibkarlığı inkişaf etdirmək məqsədilə yeni yaranan «startap» şirkətlərə və kiçik sahibkarlıq subyektlərinə qrantlar şəklində maliyyə dəstəyi verir. Artıq fond tərəfindən elan olunan ilk qrant müsabiqəsi başa çatıb və qalib layihələrin maliyyələşdirilməsi prosesi başlanılıb. Biz artıq ikinci qrant müsabiqəsinin elanını vermişik. Fondun elan etdiyi qrant müsabiqələrində Azərbaycan vətəndaşı olan fiziki şəxslər və Azərbaycan Respublikasında dövlət qeydiyyatı olan hüquqi şəxslər iştirak edə bilərlər.

***- Bu müsabiqə əvvəlki müsabiqədən nə ilə fərqlənir və əsasən hansı İT sahələrinə üstünlük veriləcəkdir?***

- Birinci qrant müsabiqəsindən sonra fondun Müşahidə Şurası layihələrin qəbulu ilə bağlı prosedurun sadələşdirilməsinə dair qərar qəbul edib. Qərara əsasən, növbəti qrant müsabiqəsində layihələr yalnız fondun rəsmi internet səhifəsində (www.ictfund.gov.az) yerləşdirilmiş «e-qrant» bölməsi vasitəsilə onlayn qəbul olunacaqdır. Sahələrə gəldikdə isə innovativ İKT xidmətlərinin və məhsullarının hazırlanması (tətbiq sahələri: e-ticarət, e-xidmətlər, mobil həllər, istehsal yönümlü yeni məhsullar və texnologiyalar, xidmətlər) mövzusu üzrə təqdim olunan layihələrin maliyyələşməsinə baxılacaqdır.

***- Bu günə kimi qrant alanlara ayrılan ümumi vəsaitin həcmi və layihələrə ayrılan qrant məbləğinin həddi nə qədərdir?***

- Birinci qrant müsabiqəsi çərçivəsində fondun Müşahidə Şurası tərəfindən 26 layihə qalib elan olundu. Müsabiqədə qalib gələn layihələr üzrə maliyyələşdirilmə isə üçmərhələli şəkildə aparılır. Artıq layihələrə ayrılan ümumi qrant məbləğindən qalib layihələrin hesablarına 219.500 manat köçürülüb. Qrant müsabiqələri üzrə bir layihənin iddia edə biləcəyi məbləğ isə 10.000 manatdan 300.000 manata qədərdir.

*Müsahibəni hazırladı:*
**Aytən NƏBİYEVA**

# Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə ELAN EDİR

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə 2014-cü il oktyabrın 20-dən noyabrın 2-si saat 24-dək qəbul edilir. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Sənədləri qəbul edilən namizədlər 2014-cü il noyabrın 13-15-də saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 2014-cü il noyabrın 16-da TQDK-nın müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

«Elektron ərizə» formasını doldurmazdan əvvəl namizədlər «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları» ilə tanış olmalı, bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Elektron poçtu olan namizədlərin poçt ünvanına qeyd olunan qaydalar və müsabiqə ilə bağlı digər zəruri məlumatlar göndərilir.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda 012-403-81-35 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

***Diqqət!*** *Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan iqtisadçı və hüquqşünaslara üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.*

Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız aşağıda qeyd olunan vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vakant yer üzrə vəzifədə işləməkdən imtina edərsə Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

| MÜSABİQƏYƏ ÇIXARILAN VAKANT VƏZİFƏLƏRİN SİYAHISI: |
|---|
| **3 saylı Ərazi Vergilər İdarəsi (Quba şəhəri)** |
| Koordinasiya şöbəsinin böyük mütəxəssisi |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| Qeydiyyat və uçot şöbəsinin dövlət vergi müfəttişi |
| **4 saylı Ərazi Vergilər İdarəsi (Şamaxı şəhəri)** |
| Operativ nəzarət şöbəsinin dövlət vergi müfəttişi |
| **5 saylı Ərazi Vergilər İdarəsi (Şirvan şəhəri)** |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| **8 saylı Ərazi Vergilər İdarəsi (Beyləqan şəhəri)** |
| Vergi proqnozları və risklərin təhlili şöbəsinin dövlət vergi müfəttişi |
| **9 saylı Ərazi Vergilər İdarəsi (Göyçay şəhəri)** |
| Vergi ödəyicilərinə xidmət şöbəsinin dövlət vergi müfəttişi |
| Vergi borclarının alınması şöbəsinin dövlət vergi müfəttişi |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| **12 saylı Ərazi Vergilər Departamenti (Gəncə şəhəri)** |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| Operativ nəzarət şöbəsinin dövlət vergi müfəttişi |
| Qeydiyyat və uçot şöbəsinin dövlət vergi müfəttişi |
| **13 saylı Ərazi Vergilər İdarəsi (Zaqatala şəhəri)** |
| Vergi proqnozları və risklərin təhlili şöbəsinin dövlət vergi müfəttişi |
| **Zəngilan Rayon Vergilər Şöbəsi (Bakı şəhərində yerləşir)** |
| Vergi borclarının məcburi alınması işinin təşkili bölməsinin dövlət vergi müfəttişi |
| **Cəmi: 14 yer.** |
| ***Qeyd:*** *Müsabiqənin sonuna qədər vakant yerlərin sayı dəyişə bilər.* |

## RƏQƏMLƏRİN DİLİ İLƏ...

- 2014-cü ildə Vergilər Nazirliyi vergi orqanlarına işə qəbulla bağlı sayca 2-ci müsabiqə keçirir. Birinci müsabiqədə iştirak etmək üçün 2303 nəfər müraciət etmişdi. Onlardan sənədləri qəbul olunanların sayı 1931, test imtahanında müvəffəqiyyət qazananlar 76, müsabiqədə müvəffəqiyyət qazananların sayı isə 58 nəfər təşkil edib. Müsabiqədən keçənlərdən 55 nəfəri işlə təmin olunub.
- Vergilər Nazirliyi 2005-ci ildən (2010-cu il istisna olmaqla) vergi orqanlarına işə qəbulla bağlı müsabiqələr keçirir və indiyədək müsabiqədə iştirak üçün müraciət edənlər 11.564 nəfər, sənədləri qəbul olunanlar 9913 nəfər, test imtahanından müvəffəqiyyət qazananlar 1545 nəfər, müsabiqədən keçənlər 1130 nəfər, işlə təmin olunanlar 1056 nəfər, kadr ehtiyatından çıxarılanlar isə 71 nəfər olub.

# Nəzarət-kassa aparatlarından hər kəsin yararlanması vacibdir

*İstər vergi ödəyicisinin, istərsə də istehlakçının fərdi maraqlarının təmin olunmasından başqa, nəzarət-kassa aparatının (NKA) tətbiqi ümumən cəmiyyətin maraqlarına xidmət edir. Tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınması kölgə iqtisadiyyatının qarşısının alınmasına, vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticədə iqtisadiyyatın inkişafına, dövlətin güclənməsinə və əhalinin rifahının yüksəlməsinə gətirib çıxarır. Buna baxmayaraq, istehlakçılara NKA çeklərinin verilməsində və ümumiyyətlə bəzi yerlərdə NKA-ların quraşdırılmasında bir çox nöqsanlar mövcuddur.*

Azərbaycan Respublikasında nağd pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatlarının tətbiqi və istifadəsi Nazirlər Kabinetinin 1995-ci il 28 dekabr tarixli 266 saylı qərarı ilə təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Əsasnamədə Vergilər Nazirliyinin vəzifələrinə müəyyən olunmuş qaydada servis texniki xidmət mərkəzlərinin (STXM) və vergi ödəyicilərinə məxsus NKA-ların qeydiyyata alınması, istifadəsi qadağan olunmuş NKA modellərinin qeydiyyatdan çıxarılması, istehlakçılar tərəfindən istifadə edilən NKA-da STXM-lərin və vergi orqanlarının plomblarının mövcudluğunun və servis texniki xidmət mərkəzlərinin mütəxəssislərini cəlb etməklə xidmətdə olan NKA-ların sazlığının yoxlanılması aid edilmişdir. Bundan əlavə, vergi orqanlarına elektron məsafədənötürmə qurğuları və ya elektron nəzarət lenti quraşdırılmalı obyektləri müəyyən etmək, bu qurğular vasitəsilə Vergilər Nazirliyinin mərkəzi serverinə məlumatların ötürülməsi ilə bağlı texniki parametrləri təyin etmək, nazirliyin mərkəzi serveri vasitəsilə elektron məsafədən ötürmə qurğularından ötürülən məlumatların qəbulunu və emalını təşkil etmək, mütəmadi olaraq mütəxəssisləri cəlb etməklə, elektron məsafədənötürmə qurğularının və ya elektron nəzarət lentinin sazlığını yoxlamaq və digər məsələlər həvalə edilmişdir.

Qanunvericiliyə və müvafiq qaydalara görə, obyektlərdə quraşdırılmış NKA-nın yaddaşına malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı və bir vahidinin qiyməti daxil edilməlidir. Alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlər müqabilində alıcılara (sifarişçilərə) müvafiq məlumatları özündə əks etdirən kassa çeki təqdim olunur. Alıcıya təqdim edilən çeklərdə vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, NKA-nın markası və zavod nömrəsi hökmən əks etdirilməlidir. Alıcı kassa çeki ilə yanaşı, malın (işin, xidmətin) qaimə-fakturasını tələb etdikdə satıcı kassa çeki ilə birlikdə həmin sənədləri də alıcıya təqdim etməyə borcludur.

Bəs vergi ödəyiciləri yuxarıda göstərilən tələblərə əməl edirlərmi?

Bu tələblərə əsasən əməl olunduğunu müşahidə etsək də, Bakı ətrafındakı bəzi kənd və qəsəbələrdə NKA-nın olmadığı obyektlərin fəaliyyət göstərməsi heç kimə sirr deyil. Ucqar kənd və qəsəbələrdə isə belə hallara daha tez-tez rast gəlmək mümkündür.

Vergilər Nazirliyinin Operativ nəzarət idarəsinin Operativ nəzarətin təşkili şöbəsinin əməkdaşı Zakir Qasımovun məlumatına görə, 2014-cü ilin yanvar-sentyabr ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, NKA-dan istifadə və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 41669 obyektdə qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 24176 obyektdə nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 7367 obyektdə qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi müəyyən olunmuşdur. Belə hallara qarşı vergi orqanları tərəfindən sərt mübarizə tədbirləri həyata keçirilir.

Vergi Məcəlləsinin 58.7-ci maddəsinə görə, vergi ödəyicisinə müxtəlif mərhələlərdə maliyyə sanksiyaları bu hallarda tətbiq edilir:



2014-cü ilin ilk doqquz ayı ərzində əhali ilə pul hesablaşmaları aparmaqla fəaliyyət göstərən obyektlərdə 24989 NKA qeydiyyata alınmışdır

♦ nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni NKA-lar və ya ciddi hesabat blankları tətbiq edilmədən, vergi orqanlarında qeydiyyatdan keçirilməyən və ya texniki tələblərə cavab verməyən NKA-dan istifadə etməklə, qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə nağd pul hesablaşmalarının aparılmasına görə;

♦ alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə;

♦ nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə.

Təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə - 400 manat məbləğində; ikinci dəfə yol verildikdə - 800 manat məbləğində; üç və daha çox dəfə yol verildikdə - vergi ödəyicisinə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

2014-cü ilin ilk doqquz ayı ərzində əhali ilə pul hesablaşmaları aparmaqla fəaliyyət göstərən obyektlərdə 24989 NKA qeydiyyata alınmışdır.

Əhali ilə pul hesablaşmaları nəticəsində əldə olunmuş nağd pul vəsaitinin vergidən yayındırılması məqsədilə NKA-ya qanunsuz müdaxilə hallarının qarşısının alınması üçün Nazirlər Kabinetinin 26 noyabr 2009-cu il tarixli qərarı ilə vergi ödəyicilərinin istifadəsində olan NKA-lara elektron məsafədənötürmə qurğularının və ya elektron nəzarət lentinin tətbiqinə başlanılmışdır. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən elektron məsafədənötürmə qurğusu və ya elektron nəzarət lenti quraşdırılmalı obyektlərin siyahısı müəyyən edilərək müvafiq yerli vergi orqanlarına göndərilir. Yerli vergi orqanları isə müvafiq servis texniki xidmət mərkəzləri ilə birgə həmin obyektlərə elektron məsafədənötürmə qurğusu və ya elektron nəzarət lentinin quraşdırılmasını təmin edirlər. Həmin qurğular vasitəsilə vergi ödəyicisinin NKA-dan istifadə edib-etməməsinə nəzarət edilir, NKA-ya vurulmuş məbləğlər barədə məlumatlar Vergilər Nazirliyinin mərkəzi serverinə ötürülür və həmin məlumatlar emal edilərək vergitutma bazasının müəyyən olunması məqsədi ilə istifadə edilir.

Sahibkarların nəzərinə çatdırırıq ki, artıq ölkəmizdə vergi ödəyicisi və ya müqavilə əsasında STXM tərəfindən NKA-ların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması elektron formada aparıla bilər. Birinci halda vergi ödəyicisi Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) «E-xidmətlər» bölməsindəki «Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması» adlı elektron xidməti seçərək «İnternet Vergi İdarəsi»nin «Onlayn kargüzarlıq və e-VHF» alt bölməsində öz istifadəçi kodu, parol və şifrəsi vasitəsilə sistemə daxil olmaqla NKA-nı elektron formada qeydiyyatdan keçirə bilər.

**Rəşad SADIQOV**

# Aqrar sığortada yeni mərhələ

Dünyanın bütün ölkələrində aqrar siyasət dövlətin ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin yaşayışının yaxşılaşmasında və ixracın artmasında mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında istehsal birbaşa təbiət hadisələri ilə bağlı olduğundan, bu sahədə sığorta faktoru ciddi rol oynayır. Aqrar sahədə hər hansı təbii fəlakət fermerlərin riskini artırmaqla onların gəlir əldə etmək imkanlarını məhdudlaşdırır. Bu səbəbdən, kənd təsərrüfatında sığorta çox vacib məsələdir. Müxtəlif inkişaf etmiş ölkələrdə aqrar sektorda sığorta iqtisadiyyatda başlıca yer tutur. Həmin ölkələrdə sığorta haqları müxtəlifdir. Bu, ÜDM-in aqrar sahə üzrə xüsusi payında təxminən 2% təşkil edir.

Maliyyə naziri Samir Şərifov mətbuata açıqlamasında bildirmişdi ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının əmlak mənafelərinin daha etibarlı qorunmasına şərait yaradılması məqsədilə «Kənd təsərrüfatında sığortanın dövlət dəstəyi vasitəsilə stimullaşdırılması haqqında» qanun layihəsi hazırlanıb.

Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına əsasən, kənd təsərrüfatının sığortası ilə bağlı qanun layihəsi artıq baxılmaq üçün Nazirlər Kabinetinə təqdim edilib. Bu proses başa çatdıqdan sonra öz fikirlərini bildirmək üçün qanun layihəsi sığorta şirkətlərinə də təqdim olunacaq. Qanunda kənd təsərrüfatının sığortalanması ilə bağlı Türkiyə təcrübəsi - TARSİM modeli əsas götürülüb. Yəni aqrar sahənin sığortalanmasında «Sığorta daxili» mexanizmi yaradılacaq. Bu modelə görə, sığorta şirkətləri topladıqları sığorta haqlarını «Sığorta daxili»nə təhvil verəcək. Şirkətlər topladıqları sığorta haqları müqabilində komissiya alacaq. Yəni sığorta şirkətləri «Sığorta daxili»nı idarə edən büronun agentinə çevriləcək.

Ekspertlər qanunun qəbulundan sonra kənd təsərrüfatında sığorta ilə bağlı vəziyyətin tamamilə yeni səmtə yönələcəyini və fermerlərin könüllü olaraq aqrar sığortaya müraciət edəcəklərinin gözlənildiyini bildirirlər. «Başak-İnam Sığorta Şirkəti»nin Biznesin inkişafı departamentinin rəhbəri Hikmət Allahverdinin sözlərinə görə, Azərbaycanda sığorta sektorunun inkişafı ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə nisbətən aşağı səviyyədədir: «Bu vəziyyət sığorta şirkətlərini yeni bazar potensiallarını dəyərləndirməyə yönləndirməkdədir. Bunlardan biri də kənd təsərrüfatı sektorudur. Bu sektorda sığortaçılıq fəaliyyətlərinin arzu edilən səviyyədən çox aşağı olduğu bir reallıqdır. Halbuki son illərdə bu sahədə əldə edilən irəliləyişlər sığortaçılıq baxımından ciddi potensial yaratmışdır. Aqrar sektorda məşğul olan əhalinin sayı 1995-ci ildəki 1,11 milyon nəfərdən 2011-ci ildə 1,66 milyon nəfərə yüksəlmişdir. Aqrar sektorda məşğul olan əhalinin orta aylıq nominal əməkhaqqı 1995-2011-ci illərdə 20 dəfədən çox artmışdır. Bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının (bitkiçilik və heyvandarlıq) istehsalı 1995-ci ildəki 726,8 milyon manatdan 2012-ci ildə 4,85 milyard manata yüksəlmişdir. Aqrar sektorda əsas kapitala yönəldilmiş investisiyaların həcmi 1995-ci ildəki 4,5 milyon manatdan 2012-ci ildə 648,8 milyon manata çatmışdır. İnvestisiyalar, sadəcə, mütləq dəyər olaraq artmamış, həm də müvafiq dövrdə onların ümumi investisiyalar içərisindəki xüsusi çəkisi 1,9%-dən 4,2%-ə yüksəlmişdir. Son illərdə kənd təsərrüfatı istehsalçılarının sığortaya ayıra biləcəkləri maliyyə vəsaitləri və əllərindəki sığorta edilə bilən əsas istehsal fondları ciddi şəkildə artmışdır ki, bu vəziyyət məhsuldarlıq artımına nail olmaq üçün geniş imkanlar yaradır.

H. Allahverdi qeyd edir ki, hazırda kənd təsərrüfatı istehsalında mühasibat və profilaktik tədbirlərin uçot sisteminin tətbiqi lazımi səviyyədə deyil: «Bu problemin həllində sığorta ciddi rol oynaya bilər. Çünki aqrar məhsulların sığortalanması zamanı sığorta şirkətləri riskləri düzgün qiymətləndirilməsi baxımından dəqiq uçot sisteminin aparılmasını tələb edirlər. Bu tələb baş verən sığorta hadisələrinin səbəbini doğru müəyyənləşdirmək baxımından da vacibdir. Sığorta aqrar sektorda baytarlıq, aqronomluq, aqrotexniki və s. xidmətlərin istifadəsinin geniş yayılmasını stimullaşdıra bilər. Çünki həm kənd təsərrüfatı məhsullarının sığortalanması, həm də baş verən sığorta hadisələrinin tənzimlənməsi zamanı adı çəkilən xidmətlərə ciddi tələb yaranacaqdır».

Müsahibimizin sözlərinə görə, banklardan kredit almaq istəyən fermerlər əmlaklarını girov qoymalı olurlar ki, bu da fermer üçün böyük çətinlik yaradır və onun kredit almaq şansını azaldır: «Hansısa təbiət hadisəsi baş verdikdə məhsulunu itirən fermer banka girov qoyduğu əmlakını da itirmək təhlükəsi ilə qarşılaşır. Kənd təsərrüfatı məhsullarının sığortası zamanı əmlak fermerin mülkiyyətində qalır. Digər tərəfdən, banklar fermerlərə təminatsız kredit verməkdən çəkinirlər. Çünki təminatsız kreditlərin problemli kreditə çevrilmə ehtimalı çox yüksəkdir. Kənd təsərrüfatı məhsullarının sığortalanması aqrar sektorla bağlı problemli kreditlərin həcmini qismən azalda bilər. Bu isə fermerlərin kreditləri daha aşağı faizlə əldə etməsi deməkdir. Kredit faizlərinin aşağı düşməsi fermerlərin sığortaya ayıra biləcəkləri maddi vəsaitlərin də artmasına səbəb olacaqdır».

Azərbaycanda kənd təsərrüfatı məhsullarının sığortalanmasının stimullaşdırılması üçün müəyyən olunmuş təkliflərə gəlincə, H.Allahverdi bildirir ki, sığorta şirkətlərinin kənd təsərrüfatı məhsullarının sığortası ilə bağlı gəlirlərinin vergidən azad edilməsi məqsədəuyğundur: «Kənd təsərrüfatı istehsalçıları üçün sığorta fəaliyyətləri ilə bağlı kütləvi maarifləndirmə və təbliğat işinin təşkili, aqrar sahə üzrə peşəkar mütəxəssislərin hazırlanması, sığorta şirkətlərinin kənd təsərrüfatı məhsullarının sığortası ilə bağlı fəaliyyətləri nəticəsində yaranan bəzi xərclərinə (rabitə, nəqliyyat və s.) müəyyən güzəştlərin edilməsi, məhsullarını sığorta etdirən kənd təsərrüfatı istehsalçılarının güzəştli kreditlərlə (aşağı faiz dərəcəli, uzunmüddətli, geri qaytarılma şərtləri daha uyğun və s.) təmin edilməsi vacib şərtlərdəndir».

Artıq sığorta sahəsində kənd təsərrüfatı üzrə yeni proseslərə start veriləcək. Bundan sonra Azərbaycanda güzəştli kredit və ya subsidiya almaq istəyən fermerlər öz təsərrüfatlarını sığortalamalı olacaqlar.

**Fəxriyyə İKRAMQIZI**



**Kənd təsərrüfatı məhsullarının sığortalanması aqrar sektorla bağlı problemli kreditlərin həcmini qismən azalda bilər**

# Təhsilin keyfiyyətinə xüsusi diqqət yetirilir

*Vergilər Nazirliyinin Tədris Mərkəzində yeni təlim metodlarına əsaslanan vergi təhsilinin təşkili, dövlət vergi orqanı əməkdaşlarının peşə hazırlığı səviyyəsinin təkmilləşdirilməsi qarşıya qoyulan prioritet vəzifələrdəndir.*

Əməkdaşların müntəzəm olaraq tədris kurslarına cəlb edilməsi onların potensial imkanlarını (yaradıcı düşüncə, müstəqil öyrənmə, yeniliklərə çevik uyğunlaşma, komanda ilə işləmə, ünsiyyətin qurulması və s.) və peşəkar biliklərini qiymətləndirməyə imkan verir.



Tədris Mərkəzində hər il Vergilər Nazirliyi tərəfindən təsdiq edilən illik tədris qrafikinə əsasən müxtəlif proqramlar üzrə ilkin hazırlıq, ixtisasartırma və təlim kursları aparılır. Cari tədris ili ərzində tədris kurslarına 481 nəfər, təlimlərə 863 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmiş, 10 ixtisasartırma, 6 ilkin hazırlıq kursu və 38 qısamüddətli təlim keçilmişdir. Bu ilin sonunadək ixtisasartırma kurslarına 80, təlimlərə isə nəfər əməkdaşın cəlb edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, orta menecerlər və mütəxəssislər təlim qruplarına aid edilən əməkdaşlar üçün dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət, audit, operativ vergi nəzarəti, qeydiyyat və uçot, kargüzarlıq və koordinasiya, təqdim edilmiş bəyannamələrin və vergi borclarının alınması işlərinin təşkili, vergi qanunvericiliyi və inzibatçılığı funksional fəaliyyət istiqamətləri ilə yanaşı, dövlət vergi orqanlarında hüquqi təminat işlərinin təşkili sahəsində fəaliyyət göstərən əməkdaşlar üçün də ixtisasartırma kursları təşkil edilir. Qeyd olunan funksional fəaliyyət istiqaməti üzrə 2014-cü il sentyabrın 29-dan oktyabrın 21-dək ixtisasartırma kursu aparılmış və əməkdaşların peşə hazırlığı səviyyəsi yüksək qiymətləndirilmişdir. Bütövlükdə qrupun yekun qiymətləndirmədə mənimsəmə səviyyəsi «əla» (94,6%) olmuşdur. İlkin qiymətləndirmə ilə müqayisədə fərq +28,1 bənd olmuşdur (66,5%). Əməkdaşların təxminən 80%-i «əla», 20%-i isə «yaxşı» qiymət almışdır. Bir nəfər 100%-li nəticə əldə etmişdir. Tədris edilən fənlər arasında ən yüksək nəticə əməkdaşların fəaliyyət göstərdikləri sahə üzrə olmuşdur (98,5%).

Tədris kurslarında əldə edilən nəticələr təhsilin yüksək səviyyədə təşkil olunduğunu və səmərəliliyini sübut edir. Bu prosesdə Tədris Mərkəzinin təlimçiləri ilə yanaşı, nazirliyin tədrisə cəlb edilən təlimçilərinin də böyük rolu olmuşdur.

# «Azərbaycanın vergi jurnalı»nın növbəti buraxılışı çapdan çıxıb

*Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan jurnalın yeni 4-cü nömrəsi də ənənəvi olaraq «Rəsmi» rubrikası ilə açılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «neurope.eu» informasiya portalına müsahibəsi ilə başlayan rubrika Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısının nitqinin xülasəsi ilə davam etdirilir.*

Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı iki mühüm informasiya: Amerika Birləşmiş Ştatlarının Daxili Gəlirlər Xidmətinin nümayəndə heyəti ilə «Məlumatların təhlükəsizliyinin təmin edilməsi və infrastrukturu» mövzusunda görüş və 2014-cü ilin ilk yarısı ərzində vergi hüquqpozmalarına qarşı görülmüş mübarizə tədbirləri haqqında məlumat da jurnalın bu nömrəsində dərc edilib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovun «AzərTAc»a müsahibəsi jurnalın oxucularında milli vergi qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması və digər prioritet məsələlər barədə ətraflı təsəvvür yaradır. İdarənin təqdim etdiyi «Vergilər Nazirliyinin virtual kitabxanası...» sərlövhəli material isə www.e-kitabxana.taxes. gov.az ünvanında yerləşdirilmiş yeni internet resursunun imkanları haqqında oxucuları məlumatlandırır.

«Qanunvericilik» rubrikasında «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Qanun, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1005-IVQD nömrəli Qanununun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı, «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanun, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanun, «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1003-IVQD nömrəli Qanununun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında»Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1002-IVQD nömrəli Qanununun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin fərmanı, «Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar»ın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin qərarı yerləşdirilib.




Jurnalın elmi məqalələr blokunu iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu əsərlər təşkil edir: Azərbaycan Dövlət İqtisad Universitetindən i.e.d.,prof. N.Xudiyevin «Sığorta təşkilatlarında vergitutmanın alternativ mexanizmi və onun tətbiqi perspektivləri», i.e.d., prof. Y.Kəlbiyevin «Maliyyə sektoru təşkilatlarının vergiyə cəlb olunmasının nəzəri-metodoloji və praktiki məsələləri», Vergilər Nazirliyinin Tədris Mərkəzindən i.f.d. C.Yusifovun «Vergi öhdəliklərinin icrası sahəsində beynəlxalq təcrübənin tədqiqi», i.f.d. P.Rzayevin «Vergi və mühasibat uçotu məqsədləri üçün iqtisadi subyektin uçot siyasətinin formalaşması xüsusiyyətləri», i.f.d. İ.Qarayevin «Kiçik və orta sahibkarlığın inkişafına xidmət edən vergi siyasətinin əsas xüsusiyyətləri», Bakı Dövlət Universitetindən doktorant M.Yusifovun «Azərbaycanda inflyasiya proseslərinə monetar və xarici sektorun təsirinin ekonometrik modelləşdirilməsi», Vergilər Nazirliyinin əməkdaşı M.Əmirovun «Azərbaycan Respublikasında enerji sektorunun vergi tənzimlənməsi məsələləri», ABŞ-ın Seton Holl Universitetinin magistrantı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə jurnalın keçirdiyi referat yazılışı üzrə beynəlxalq müsabiqənin qalibi M.Kohlerin «Vergi ödəmələrinin asanlaşdırılması məqsədilə tətbiq edilən elektron sənəd doldurma və ödəmə sistemlərinin makro təsirləri».

«Dünya iqtisadiyyatı» rubrikasında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı - Böyük Britaniya iqtisadiyyatı, vergi sistemi haqqında oxucülara geniş məlumat verilib. «Vergi sistemləri» rubrikasında isə Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin əməkdaşı N.Hacıyevanın Çex Respublikasının vergi sistemi haqqında ingilis dilində məqaləsi yerləşdirilib.

Jurnal «Elm korifeyləri» rubrikasında oxuculara 2005-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş İsrail-Amerika riyaziyyatçısı Robert Aumannın və ABŞ iqtisadçısı Tomas Şellinqin həyatı və elmi yaradıcılıqları barədə məlumat verir.


## Vergi ödəyicilərinin nəzərinə!

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi bildirir ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | BŞVD | «ARENA» ASC | Bakı şəhəri Səbail rayonu | İcarə obyekti |
| 2 | BŞVD | «AZ TOVTRANS TİKİNTİ» MMC | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 3 | BŞVD | «RAMİN» FİRMASI | Bakı şəhəri Binəqədi rayonu | «Ramin» şadlıq sarayı |
| 4 | BŞVD | ƏZİZXANLI ELÇİN ƏZİZXAN OĞLU | Bakı şəhəri Nizami rayonu | «Kral» mebel mağazası |
| 5 | BŞVD | «ABŞERON» ixtisaslaşdırılmış mədə-bağırsaq sanatoriyası | Bakı şəhəri Xəzər rayonu | Mədə-bağırsaq sanatoriyası |
| 6 | BŞVD | «SUNRİSE» ŞİRKƏTİ | Bakı şəhəri Yasamal rayonu | Daş karxanası |
| 7 | BŞVD | «STRIMER» sahələrarası elm-istehsalat şirkəti | Bakı şəhəri Xətai rayonu | Strimer ofis |
| 8 | BŞVD | «UNİ-İNFO HOLDİNG» MMC | Bakı şəhəri Nərimanov rayonu | Metal qəbulu |
| 9 | BŞVD | «TRAVELERS COFFEE LİMİTED» şirkətinin Azərbaycan Respublikasındakı filialı | Bakı şəhəri Səbail rayonu | «Travelers coffee» kafesi |
| 10 | BŞVD | «KISMET» MMC | Bakı şəhəri Binəqədi rayonu | Gips istehsalı |
| 11 | BŞVD | «AMA» ASC | Bakı şəhəri Sabunçu rayonu | İcarə obyekti |
| 12 | BŞVD | «KASPİ-V.C.» MMC | Bakı şəhəri Binəqədi rayonu | Uşaq yeməklərinin saxlanılması və satışı |
| 13 | BŞVD | «MEHR» MMC | Bakı şəhəri Səbail rayonu | «Təbriz Mehr» tibb mərkəzi |
| 14 | BŞVD | SADIQOV ELÇİN AYDIN OĞLU | Bakı şəhəri Suraxanı rayonu | «Pub» pivə satışı |
| 15 | BŞVD | ŞƏRİFOV ELMƏDDİN ƏFLATUN OĞLU | Bakı şəhəri Suraxanı rayonu | «006» avtosalon |
| 16 | BŞVD | İSLAMOV ŞÜKÜR İSLAM OĞLU | Bakı şəhəri Yasamal rayonu | Kafe |
| 17 | 2 ƏVD | İSMAYILOV ELDƏNİZ RƏŞİD OĞLU | Sumqayıt şəhəri | Üzlük daşların istehsalı |
| 18 | 3 ƏVİ | XANƏHMƏDOV RÜFƏT XANƏHMƏD OĞLU | Qusar rayonu | Mağaza |
| 19 | 4 ƏVİ | MƏMMƏDOV TELMAN ABZƏR OĞLU | Şamaxı rayonu | Plastik qapı-pəncərə sexi |
| 20 | 5 ƏVİ | «ŞİRVAN TİKİNTİ SƏNAYE» ASC | Şirvan rayonu | İstehsal obyekti (maye beton) |
| 21 | 6 ƏVİ | QULİYEV RAMİN ADİL OĞLU | Lənkəran rayonu | Mağaza |
| 22 | 9 ƏVİ | «ŞİRVAN İNŞAAT» MMC | Ağdaş rayonu | Tikinti materiallarının satışı |
| 23 | 9 ƏVİ | CƏBRAYILOV AKİF FİRUDİN OĞLU | Kürdəmir rayonu | Ətriyyat mağazasi |
| 24 | 11 ƏVD | «TƏRTƏR-AVTONƏQLİYYAT» ASC | Tərtər rayonu | Avtonəqliyyat |
| 25 | 11 ƏVD | «TÜRKAN-M» MMC | Mingəçevir şəhəri | Məişət naqillərinin istehsalı və satışı |
| 26 | 12 ƏVD | «GƏNCƏ-AQROTEXNİKA» ATSC | Gəncə şəhəri | Pərakəndə ticarət obyekti |
| 27 | 12 ƏVD | «HALAL QİDA» MMC | Gəncə şəhəri | İstehsal obyekti |
| 28 | 12 ƏVD | RAYONLARARASI İSTEHSALAT KOMBİNATI | Gəncə şəhəri | Ofis |
| 29 | 14 ƏVİ | SƏMA-4 MTK | Şəmkir rayonu | Ofis |
| 30 | 14 ƏVİ | TANARVERDİYEV VÜQAR RUM OĞLU | Gədəbəy rayonu | Mağaza |



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Ənənəvi (köhnə) hesablar planının tətbiqinin aparılan auditə neqativ təsiri

***Yeni və ənənəvi hesablar planının müqayisəli təhlili əsasında izahlar***

Qeyd edildi ki, köhnə hesablar planındakı qüsurlu məqamlardan biri də gəlir və xərc hesablarının yerləşməsi və bağlanması metodologiyasındakı anormallıqdır.

Məsələn, köhnə hesablar planı üzrə xərclərlə bağlı əməliyyatları uçota almaq üçün bir neçə bölmənin tərkibinə aid edilən hesablardan istifadə olunması məcburiyyəti yaranır. Xərc əməliyyatlarını uçota alan hesablar konkret olaraq bir bölmədə (bir başlıq altında) yerləşdirilməyib. Analiz etsək aydın olur ki, təsərrüfat subyektində baş verə bilən xərc əməliyyatları köhnə hesablar planında ən çox aşağıdakı üç bölmənin hesablarında uçota alına bilər və bu uçot tələblərinə zidd hesab olunmurdu *(Bax: Cədvəl 1)*.

Yeni hesablar planında isə baş verə bilən xərc əməliyyatları konkret olaraq bir bölmədə nəzərdə tutulmuş hesablarda uçota alınması tələb olunur *(Bax: Cədvəl 2)*.

Maraqlısı odur ki, köhnə hesablar planındakı 46, 47 və 48 №-li hesablar yeni hesablar planı üzrə iki bölməyə aid edilən hesabları, yəni həm gəlir, həm də xərc əməliyyatlarını uçota alan hesablar kimi təzahür edir. Yeni hesablar planının dəstxətti ilə 46, 47 və 48 №-li hesabları yeni hesablar planı üzrə sanki iki hesaba parçalamaq olar. Bu hesabların debeti üzrə əməliyyatlar yeni hesablar planının xərc («xərclər» bölməsinin) hesablarında, krediti üzrə əməliyyatlar isə yeni hesablar planının gəlir («gəlirlər» bölməsinin) hesablarında uçota alınan əməliyyatlara uyğun gəlir. Yenidə tələb ondan ibarətdir ki, xərc hesabları yalnız debet üzrə, gəlir hesabları isə yalnız kredit üzrə uçota alına bilər və hər hansı xərc hesabı hər hansı gəlir hesabı ilə görüşə (bağlana) bilməz. Bu hesablar başqa bir (vahid) hesabda, yəni 801№-li «ümumi mənfəət (zərər)» hesabında görüşməli və yaranan fərq bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) hesabına köçürülməlidir.

Köhnədə isə xərc hesabları (məsələn, 20№-li, 26№-li, 43№-li və digərləri) gəlir hesabları (46№-li, 47№-li, 48№-li) ilə görüşür və gəlir (satış) hesabının qalığı mənfəət (zərər) hesabına və oradan da bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) hesabına köçürülür. Anormallıq ondadır ki, əgər 46№-li hesab satış (gəlir) hesabıdırsa, belə halda xərclərin həmin hesabın debetində əks etdirilməsi və mənfəətin məbləğinin satış hesabında formalaşması məntiqsiz görünür.

Ona görə də köhnə hesablar planı ilə uçot aparan müəssisələrdə audit zamanı mənfəət və zərərlər haqqında hesabatın göstəricilərinin düzgünlüyünün yoxlanılması üçün 46, 47, 48, 80, 81, 84, 87, 88 №-li hesabların hamısına diqqət yetirilməlidir. Yeni hesablar planı üzrə düzgün uçot aparan (düzgün ikili yazılışlar verilən) müəssisələrin mühasibat uçotunda isə 801 №-li «ümumi mənfəət (zərər)» hesabına baxmaq kifayət edər.

Cədvəl 1

| Hesabın nömrəsi | Hesabın adı |
|---|---|
| | **Bölmə 3. İstehsal məsrəfləri** |
| 20 | Əsas istehsalat |
| 23 | Köməkçi istehsalat |
| 25 | Ümumistehsalat xərcləri |
| 26 | Ümumtəsərrüfat xərcləri |
| | **Bölmə 4. Hazır məhsul, mallar və satış** |
| 43 | Kommersiya xərcləri |
| 44 | Tədavül xərcləri |
| 46 | Məhsul (iş, xidmət) satışı |
| 47 | Əsas vəsaitlərin satışı və sair xaricolmaları |
| 48 | Sair aktivlərin satışı |
| | **Bölmə 7. Maliyyə nəticələri və mənfəətin istifadəsi** |
| 80 | Mənfəət və zərər |
| 81 | Mənfəətin istifadəsi |
| 84 | Sərvətlərin əskik gəlməsi və xarab olmasından itkilər |

Cədvəl 2

| Hesabın nömrəsi | Hesabın adı |
|---|---|
| | **Bölmə 7. Xərclər** |
| 701 | Satışın maya dəyəri |
| 711 | Kommersiya xərcləri |
| 721 | İnzibati xərclər |
| 731 | Sair əmliyyat xərcləri |
| 741 | Fəaliyyətin dayandırılmasından xərclər |
| 751 | Maliyyə xərcləri |
| 761 | Fövqəladə xərclər |

beynəlxalq panoram

# Norveçdə şərab və araq bahalaşacaq




*Norveçin şərab-araq məhsulları tədarükçüləri birliyinin baş katibi Yordxeym İnqunna bildirib ki, hökumət şərab və araq istehsalına vergiləri müvafiq olaraq 2,1% və 2,2% artırmaq niyyətindədir.*

Bu, bir şüşə şərabın qiymətinin ən azı bir kron, arağın isə altı kron artması deməkdir (1 kron= 0,1198 manat).

Hazırda bir şüşə şərabın vergisi təxminən 60 krondur. Bu ilin yayında «tax-free» sistemi vasitəsilə satılan məhsulların kvotası artırılmışdı, yəni ölkədən çıxarılarkən bu məhsullara görə ödənilmiş ƏDV geri qaytarılırdı.

Birliyin baş katibi qeyd edib ki, ölkədə araq və şərab məhsullarının satışı azaldığından, bu, dövlətin milyardlarla kron itirməsinə gətirib çıxarır.

# İsveçdə imkanlı vətəndaşların vergi yükü artırılacaq

*Ölkənin yeni koalisiya hökuməti ayda 50 min krondan çox və ya təxminən 6900 dollar qazanan vətəndaşların vergi dərəcəsinin artırılmasını bəyənib.*

Gəlirləri 7000 dollara yaxınlaşan şəxslər üçün vergi dərəcələrinin yüksəldilməsini nəzərə alaraq il ərzində vergi toplanmasından 331 mln. dollar əldə olunacağı gözlənilir. Dövlət orqanlarının araşdırması göstərir ki, ildə təqribən 208 min dollar qazananlar 3600 dollar daha çox məbləğdə vergi ödəyəcəklər.

Qeyd edək ki, ölkə hökuməti öz qərarında «qızıl orta» həddini seçib. «Yaşıllar» partiyasının üzvləri gəlir vergisinin artırılmasını ayda 5556 dollardan, ölkənin Baş naziri isə 8340 dollardan çox qazananlara şamil olunmasını təklif etmişdi.

Ölkə parlamenti vergi dəyişiklikləri ilə bağlı təklifi bəyənərsə, bu dəyişiklik on minlərlə isveçliyə və burada işləyən digər ölkərin vətəndaşlarına tətbiq olunacaq.

# Avstriyanın maliyyə naziri vergi islahatlarına görə istefa verib

*Vitse-kansler, federal maliyyə naziri və Avstriya Xalq Partiyasının lideri Mixail Şpindeleqqer istefaya getməsi barədə qərarını elan edib. Buna səbəb onunla iqtidardakı koalisiya üzrə tərəfdaşları (Avstriyanın Sosial-demokrat partiyası) arasında vergi islahatlarına dair məsələlərdə yaranmış fikir ayrılığı və tərəflərin güzəştə getməmək mövqeyidir.*

Maliyyə naziri kansler Verner Faymanın yüksək gəlirlərə malik vergi ödəyiciləri üçün vergilərin artımı, aztəminatlı əhali üçün isə azaldılması ilə bağlı planını dəstəkləməyib. Bildirib ki, hökumət vergiləri aşağı salmaqdansa, öz diqqətini daha çox ÜDM-in 80%-nə çatmaqda olan dövlət borcunun azaldılması üzərində cəmləşdirməlidir.



2013-cü ildə seçilmiş yeni Avstriya hökuməti əhali üçün vergi yükünü azaltmağa söz vermişdi. Lakin dövlət maliyyə xərclərinin azaldılması nəticəsində ölkənin müdafiə qabiliyyəti zəifləyib, silahlı qüvvələrdə planlaşdırılmış islahatlar təxirə salınıb.

M.Şpindeleqqer hesab edir ki, indi vergi sisteminin sabitləşməsi yalnız yeni vergilərin tətbiqi halında mümkündür.

Xarici ölkələrin təcrübəsi

# Fransa Respublikasının vergi sistemi: *əlavə dəyər vergisi*

*Fransada mövcud olan ƏDV sistemi Aİ-də tətbiq olunan ƏDV sistemi ilə uyğunluq təşkil edir.*

Sahibkarlıq məqsədilə mal və xidmətlərin təqdim edilməsi ilə məşğul olan bütün sahibkarlıq subyektləri ƏDV ödəyiciləri hesab olunurlar. Fransaya mal və xidmətlər idxal edən şəxslər mal və xidmətlərin növündən asılı olmayaraq vergi ödəyicisidirlər. İllik dövriyyəsi 81500 avrodan az olan mal və 32600 avrodan az olan xidmətlər təqdim edən şəxslərin ƏDV öhdəliyi yaranmır, lakin onlar könüllü ƏDV ödəyicisi ola bilərlər.

ƏDV-dən azad olunan mallar və xidmətlər istisna olmaqla, Aİ daxilində əldə edilən qazanclar və sahibkarların özlərinin istifadə etdikləri də daxil bütün mal və xidmətlər ƏDV-yə cəlb edilir.

Vergi tutulan məbləğ sığorta, komissiya xərcləri, faizlər və bu tip ödənişlər, dolayı vergilər də daxil olmaqla mal və xidmət üçün ödənilən ümumi məbləğ hesab olunur. Burada yalnız qabaqcadan ödəmə üçün kompensasiya və xərclərin kompensasiyası məbləğləri istisna edilir. İdxal olunan mallar üçün vergitutma bazası malın gömrük dəyəri və gömrük rüsumları da daxil olmaqla malın ümumi dəyərindən ibarətdir. ƏDV ödəyicisi alış zamanı ödədiyi ƏDV-ni satış zamanı ödənilən ƏDV hesabına əvəzləşdirir. ƏDV-dən azad olunan mallar üzrə ödənilən ƏDV əvəzləşdirilmir.

ƏDV məqsədləri üçün məcburi qeydiyyatdan keçmə üzrə minimum illik dövriyyə - mal təqdim edənlər üçün 81500 avro, xidmət təqdim edənlər üçün 32600 avro təşkil edir.

Maliyyə-bank xidmətləri, sığorta, sağlamlıq, təhsil və bəzi şərtlər daxilində qeyri-hökumət təşkilatlarının təqdim etdikləri xidmətlər, eləcə də Aİ daxilində ixrac ƏDV-dən azaddır. Tikintisi başa çatandan sonra bina 5 il müddətində ilk dəfə təqdim edilərkən onun dəyəri ƏDV-yə cəlb olunmur. 2013-cü ildən isə tikinti təyinatlı torpaq sahələrinin təqdim edilməsi də ƏDV-dən azaddır.

*ƏDV-nin dərəcələri:* ƏDV-nin standart dərəcəsi 1 yanvar 2014-cü ildən 20%-dir (ondan əvvəl 19,6% olub). 1 yanvar 2014-cü ildən ƏDV-nin azaldılmış 10%-lik (ondan əvvəl 7%-lik) dərəcəsi nəqliyyat, oyun və əyləncə xidmətləri, su təchizatı ilə bağlı xidmətlər, kitab çapı, müəllif və sənətçilərin öz müəllif hüquqlarını təqdim etməsinə tətbiq olunur. Azaldılmış dərəcə fiziki şəxslərə təqdim olunan ev işləri, fərdi evlərdə işlər və restoran xidmətlərinə də tətbiq edilir. 2014-cü il yanvarın 1-dən azaldılmış 5%-lik dərəcə (ondan əvvəl 5,5%) bir sıra fərdi istehlak mallarına (su, ərzaq, əlillərə təqdim olunan xidmətlər) tətbiq olunur. Kitabların satışı, canlı ifa və dərman preparatlarına isə 2,1%-lik dərəcə tətbiq olunur.

ƏDV «0» (sıfır) dərəcə ilə ixraca, Aİ-daxili malların, təyyarə və gəmilərin təqdim edilməsinə tətbiq olunur.

Qeyri-rezident sahibkarlıq subyektləri Fransada təsis edilib-edilməməsindən asılı olmayaraq, bu ölkədə vergi tutulan mal və xidmətlər təqdim edirlərsə, rezident sahibkarlıq subyektləri kimi ƏDV öhdəliyi daşıyırlar. Aİ üzvü olmayan dövlətin sahibkarlıq subyektləri Fransada bəyannamə təqdim edilməsi və vergi ödənişləri həyata keçirilməsi məqsədilə öz ƏDV nümayəndəsini təyin etməlidirlər. Əgər vergi ödəyicisinin ƏDV nümayəndəsi olmazsa, «reverse charge» sisteminə uyğun olaraq, ƏDV alıcı tərəfindən ödənilir.

Qeyri-rezident sahibkarlıq subyektlərinin xaricdəki biznes fəaliyyəti ilə əlaqədar Fransada aldığı mal və xidmətlərə görə ödədiyi ƏDV-ni əvəzləşdirmək hüququ vardır. Bunun üçün iki şərt gözlənilməlidir: həmin şəxs Fransada daimi nümayəndəliyə malik olmamalı və Fransada heç bir ƏDV-yə cəlb olunan mal və xidmət təqdim etməməlidir. Fransada daimi nümayəndəliyi olan qeyri-rezidentin fəaliyyəti istisnasız olaraq yalnız xaricdəki baş ofisə mal və xidmətlərin təqdim edilməsindən ibarətdirsə, bu cür daimi nümayəndəlik də ödənilmiş ƏDV-ni (input VAT) əvəzləşdirə bilər.




# Maraqlı faktlar

- Fransa Respublikası Metropoliya Departamentlərindən (Avropa ərazisi) və Dənizarxası Departamentlərdən ibarətdir. Fransa vergi qanunvericiliyi, adətən, Dənizarxası Departamentlər - Fransa Qvianası, Qvadelupa, Martinika və Reyunyonda tətbiq edilir. Lakin vergi qanunvericiliyi həmin departamentlərin iqtisadi və sosial vəziyyətinə uyğunlaşdırılmışdır.
- Fransada 2011-ci ildə 2 mln. ədəddən çox avtomobil istehsal edilmişdir ki, onlardan 456 min ədədi «Renault», 370 min ədədi «Peugeot», 323 min ədədi «Citroen», 966 min ədədi isə xarici brendlərə malik avtomobillər olmuşdur.
- Fransada 2014-cü ilin əvvəlindən azaldılmış 5%-lik ƏDV dərəcəsi (o vaxta qədər 5,5%) bir sıra fərdi istehlak mallarına (su, ərzaq, əlillərə təqdim olunan xidmətlər), 2,1%-lik ƏDV dərəcəsi isə kitabların satışı, canlı ifalar və dərman preparatlarına tətbiq olunur.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:**

1.Quş və heyvana bənzədilən qanadlı mifik əjdaha; 2.Hərbi-siyasi blok; 3.Bir şeyə diqqət, nəyisə bilmək, öyrənmək həvəsi, meyli, arzusu; 4.Nəfəsli musiqi aləti; 5.«Mixaylo» kimi tanınan Sovet İttifaqı Qəhrəmanı, partizan və kəşfiyyatçı; 6.Böyüklərə, yaşlılara və ya ləyaqətinə, xidmətinə görə birinə göstərilən ehtiram, sayğı; 9.Seçki zamanı səsvermə qutusu; 13.Musiqili video-çarx; 15.Əzələlərin, bəzən əsəblərin və fəqərə sümüklərinin xəstəliyi nəticəsində bel nahiyəsində ağrı, sancı (xəstəlik); 16.Mühasibatda aktiv və passiv hesabların qalıqlarını göstərən və hər hansı bir təsərrüfat və ya müəssisənin müəyyən dövr ərzindəki maliyyə vəziyyətini əks etdirən ümumi cədvəl; 17.Maye yükləri daşımaq üçün böyük gəmi; 18.Neft emalında kondensat nəticəsində alınan ilkin məhsul; 20.C.Cabbarlının əsəri; 21.Cənubi Amerikada çay.

**Soldan sağa:**

1.Borulu patefon; 5.Ölkəmizdə şərqdən əsən xəfif yel; 7.Binanın, mənzilin memarlıq və bədii cəhətdən tərtib olunmuş daxili hissəsi; 8.İranda şəhər; 10.Sümüklər arasında əlaqəni təmin edən birləşmə yeri; 11.Bu gün qardaş ölkədə cümhuriyyət bayramı; 12.Neftçala rayonunda qəsəbə; 14.Uşağı yatırmaq üçün beşik başında oxunan nəğmə; 19.«Mənim ağ şəhərim» bədii filmində Murad Muradovun həyat yoldaşı obrazını canlandıran aktrisanın adı; 21.65 milyon insan tərəfindən danışılan və ən az 2000 illik keçmişi olan qədim Dravid dili; 22.Mövsümi meyvə; 23.Dəniz və sualtı üzmə cihazı; 24.M.Füzulinin məşhur qəzəllərindən biri; 25.Venesiyalı qondolyerlərin xalq mahnısı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ekstaz; 2.Lanqust; 3.Prima; 4.Orakul; 5.Lobbi; 6.Kvarta; 9.Koma; 13.Nuxa; 15.Boulinq; 16.Uşanka; 17.Broker; 18.Ottava; 20.Metod; 21.Fasad.
**Soldan sağa:** 1.Ellipsoid; 5.Lək; 7.Sindibad; 8.Abla; 10.Aruba; 11.Utopist; 12.Stend; 14.Sambo; 19.Şumaxer (Mihael); 21.Faust; 22.NATO; 23.Akustika; 24.Aid; 25.Paradiqma.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

*idman*

# 20 komanda arasında 5-ci

*Çində Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci kateqoriyalı «Tour of Hainan» veloyürüşü başa çatıb. Xatırladaq ki, 9 mərhələdən ibarət çoxgünlük yarışda 20 komanda iştirak edib.*

Oktyabrın 28-də keçirilən sonuncu - 9-cu mərhələ ilə yarışa yekun vurulub. 165.7 km-lik həlledici mərhələdə Azərbaycanı təmsil edən «Synergy Baku» kontinental komandasının 5 velosipedçisi - Maksim Averin, Samir Cəbrayılov, Aleksandr Surutkoviç, Elçin Əsədov və Ənvər Asanov finişi mərhələ qalibi ilə eyni vaxtda keçən pelotonun içərisində olublar - 4 saat 9 dəqiqə 38 saniyə.

Ümumi sıralamada təmsilçilərimizdən ən yaxşı nəticəyə Elçin Əsədov imza atıb - o, yarışın qalibi, Fransanın «Team La Pomme Marseille 13 komandasının üzvü Jülyen Antomarşidən 1 dəqiqə 43 saniyə geri qalmaqla 12-ci olub. Aleksandr Surutkoviç isə 20-ci yeri tutub. Qeyd edək ki, «Synergy Baku»nun təmsilçisi Maksim Averin yarışın 3-cü mərhələsində 2-ci yeri tutmuşdu.




Komanda hesabında isə «Synergy Baku» 20 kollektiv arasında 5-ci yeri tutub. Təmsilçimizin qabaqladığı komandalar içərisində kontinental və milli kollektivlərlə yanaşı, Hollandiyanın «Belkin-Pro Cycling Team» Dünya Turu, Avstraliyanın «Drapac Professional Cycling» və ABŞ-ın «Team Novo Nordisk» pro-kontinental komandaları da var.

# Açıq Bakı Kriterium yarışları başa çatıb

*Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) 2014-cü ilin təqvim-planına əsasən Veloparkda keçirilən Açıq Bakı Kriterium yarışına yekun vurulub. Bununla da 3 mərhələnin yekununa əsasən yarışın qalibləri müəyyənləşib.*

AVİF-in yaydığı məlumata görə, sonuncu, 3-cü mərhələdə mübarizə daha gərgin alınıb. 15 yaşadək yeniyetmələr arasında İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbinin təmsilçisi İvan Orlov finişi rəqiblərindən daha yaxşı çıxış edib. U-17 yaş qrupunda isə 8 saylı İdman Olimpiya Mərkəzinin velosipedçisi Mikayıl Səfərli ən yüksək nəticə göstərib. Gənclər, U-23 və Elit yaş qrupunda isə «Synergy Baku» komandasının üzvü Aqşin İsmayılov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

3 mərhələnin yekununa əsasən, U-15 yaş kateqoriyasında İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbinin nümayəndəsi Qadir Mustafayev yarışın qalibi olub. Həm 17 yaşlılar, həm də gənclər, U-23 və Elit yaş qrupunda isə 8 saylı İdman Olimpiya Mərkəzinin üzvləri Mikayıl Səfərli ilə Elgün Əlizadə birincilik qazanıblar.

Qaliblər Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən medal, diplom və pul mükafatı ilə təltif ediliblər.

## ANONS

*9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) birgə təşkilatçılığı ilə veloyürüş keçiriləcək. Yürüş noyabrın 9-da Dövlət Bayrağı Meydanından start götürəcək.*

*Bununla əlaqədar Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və AVİF velosiped sürməkdən zövq alan gəncləri birliyimizi əks etdirən yürüşə dəvət edir. İştirakçılar velosiped və baş geyimlərini özləri ilə gətirməlidirlər. Yürüşdə iştirak etmək istəyənlər (012) 566-74-88 nömrəli telefona zəng edərək AVİF-in mətbuat xidməti ilə əlaqə saxlaya bilərlər.*

# UEFA «Qarabağ»ın tarixi qələbəsini manşetə çıxarıb

*Oktyabrın 23-də futbol üzrə UEFA Avropa Liqası yarışlarının «F» qrupu çərçivəsində növbəti oyunlar keçirilib. Qitəmiqyaslı turnirdə Azərbaycanı təmsil edən Ağdamın «Qarabağ» komandası Ukraynada bu ölkənin «Dnepr» komandasının qonağı olub.*

Gərgin keçən qarşılaşmada təmsilçimiz rəqibini 1:0 hesabı ilə məğlub edərək tarixi qələbə qazanıb. Muarem



Muaremin 21-ci dəqiqədə vurduğu qol «Qarabağ»a qələbə gətirməklə yanaşı, Azərbaycan klublarının avrokubokların qrup mərhələsində ilk qalibiyyətini də rəsmiləşdirib.

Beləliklə, «F» qrupunda İtaliyanın «İnter» komandası 7 xalla turnir cədvəlinə liderlik edir. Ağdamın «Qarabağ» klubu 4 xalla ikinci, Fransanın «Sent-Etyen» kollektivi isə 3 xalla üçüncü pillədə qərarlaşıb.

«Dnepr»in aktivində cəmi 1 xal var. Qeyd edək ki, Qurban Qurbanovun rəhbərlik etdiyi komandamız noyabrın 6-da «Dnepr»i Tofiq Bəhramov adına Respublika stadionunda qəbul edəcək.

Yeri gəlmişkən, UEFA-nın rəsmi saytı da «Qarabağ»ın «Dnepr»i məğlub etməsinə biganə qalmayıb. Qurumun internet səhifəsində Ağdam klubunun qələbəsi «Qarabağ tarix yazdı» başlığı ilə təqdim olunub.

Onu da bildirək ki, Avropa Liqasının qrup mərhələsində çıxış edən hər bir kluba UEFA tərəfindən 1,3 milyon avro vəsait ödənilir. Bundan əlavə, hər qələbə və heç-heçə üçün də komandalara müvafiq pul mükafatı verilir.

Artıq UEFA-dan AFFA-ya daxil olan müvafiq vəsait dərhal «Qarabağ» klubunun hesabına köçürülüb. Ümid edirik ki, yavaş-yavaş büdcəsini də artıran komandamız tezliklə Avropanın aparıcı klublarının birinə çevriləcək və növbəti qələbələri ilə futbol azarkeşlərini sevindirəcək.

*mozaika*

# Yuxusuzluğun əsl səbəbi

araşdırma



*Yuxu orqanizmin xüsusi vəziyyətidir. İnsanın sağlamlığının ümumi parametrləri yuxunun sağlam olub-olmamasından asılıdır. Yaşlı insanlar arasında yuxusuzluğun əsas səbəbi yuxunun müddətində deyil, onun keyfiyyətindədir.*

Çikaqo Universitetinin mütəxəssisləri 727 nəfər yaşlı adamın iştirakı ilə apardıqları tədqiqat çərçivəsində məhz belə qənaətə gəliblər. Hər bir iştirakçının rəyi soruşulub və o, aktiqrafiya, insanın hərəkət fəallığının qrafik təsviri, o cümlədən yuxulara əsasən alimlər belə nəticəyə gəliblər ki, yuxusuzluq və orqanizmin ümumi vəziyyəti təkcə yuxunun müddətindən deyil, həm də onun keyfiyyətindən asılıdır. Ciddi yuxu pozuntuları zamanı həkimə müraciət etmək lazımdır.

da fəallıq prosedurundan keçib.

Tədqiqatın nəticələrinə görə, könüllülərin çoxu gecə yeddi saatdan çox yatıb. Adətən insanın dilxor olmaması və özünü yorğun hiss etməməsi üçün bu, kifayətdir. Lakin rəyi soruşulanların 13 faizi etiraf edib ki, onlar çox nadir hallarda yuxudan məmnun qalırlar, alimlər tədqiqat iştirakçılarının 12 faizində yuxuyagetmə problemləri, hər üç könüllüdən birində isə qəfil gecə oyanmaları aşkarlayıblar.

Əldə edilmiş məlumatlara əsasən alimlər belə nəticəyə gəliblər ki, yuxusuzluq və orqanizmin ümumi vəziyyəti təkcə yuxunun müddətindən deyil, həm də onun keyfiyyətindən asılıdır. Ciddi yuxu pozuntuları zamanı həkimə müraciət etmək lazımdır.

# İnsanın fiziki fəallığı yaşayış yerindən asılıdır

*Böyük Britaniyanın Ekseter Universitetinin tibb məktəbinin mütəxəssisləri insanların fiziki gərginliyə, piyada gəzməyə və yüngül qaçışa nə qədər vaxt sərf etmələrini araşdıraraq alınan informasiyanı həmin insanların yaşayış yerləri ilə əlaqələndirməyə çalışıblar.*

Araşdırmada Böyük Britaniyanın 180 mindən çox sakini iştirak edib.

Məlum olub ki, iri çimərliklərin yaxınlığında yerləşən sahilyanı şəhərlərin sakinləri öz fiziki fəallıqlarını daha çox qoruyub saxlayırlar. Ölkənin qərbindəki şəhərlərin sakinləri idmanla daha çox məşğul olurlar və onlar daha fəaldırlar. Böyük Britaniyanın şərq sahillərinin sakinləri isə fiziki fəallıqları ilə o qədər də seçilmirlər.

Landşaftın xüsusiyyətləri insanları piyada gəzməyə, yüngül qaçış və üzgüçülük məşğələlərinə daha çox vaxt ayırmağa məcbur edir. Məhz bu səbəbdən, adamların əksəriyyəti məzuniyyət dövründə təmiz havada çimmək və gəzmək imkanı olan ekoloji baxımdan əlverişli yerlərə üz tuturlar.



madəniyyət

# Rusiya onunla fəxr edir

*Rusiyanın Xantı-Mansiysk rayonunun Qornopravadinsk qəsəbəsində məşhur azərbaycanlı neftçi Fərman Salmanovun heykəlinin açılış mərasimi olub.*



Rusiyanın əməkdar geoloqu, Pravdinsk geoloji ekspedisiyasının ilk rəhbəri F.Salmanov Qərbi Sibirdə 30 ildən çox işləyib. Onun işti-raki ilə Sibirdə 150-dən çox neft yatağı açılıb.

Xantı-Mansiyskdə ucaldılan heykəlin müəllifi Dostoyevski, Şoloxov və Vısotski kimi məşhur xadimlərin heykəllərini hazırlayan Aleksandr Rukavişnikovdur.

Heykəlin Qornopravdinsk qəsəbəsində qoyulması da təsadüfi deyil. Bu qəsəbənin əsasını məşhur həmyerlimiz qoyub, onun başçılıq etdiyi ekspedisiya həmin qəsəbənin yerləşdiyi ərazidə düşərgə salıb.

Açılış mərasimində bildirilib ki, Fərman Salmanovun açdığı həmin 150 neft yatağı hələ də neft verməkdədir.

Qeyd edək ki, Qornopravdinsk qəsəbəsində F.Salmanovun heykəlinin qoyulması hələ bir neçə il əvvəl planlaşdırılmışdı, bu ideyanı Xantı-Mansiysk rayonunun əhalisi irəli sürmüşdü. F.Salmanovun heykəli Yuqrada ən iri abidədir.

# Futbolçular 75%-lik vergi ödəməyəcəklər

tam ciddi

*Fransanın Baş naziri Manuel Vals bildirib ki, Fransa liqasında çıxış edən futbolçular ildə 1 milyon avronu üstələyən əməkhaqqından 75% vergi ödəməyəcəklər.*

Qeyd edilib ki, belə yüksək verginin ödənilməsi barədə qərar kəskin reaksiyaya səbəb olub. Lakin bir çoxları unudurlar ki, bu, müvəqqəti qərardır: 1 yanvar 2015-ci ildən həmin vergi dərəcəsi tətbiq edilməyəcək.

Xatırladaq ki, belə yüksək vergi dərəcəsinin tətbiq edilməsi haqqında qərar ötən ilin dekabrında Fransanın Konstitusiya Şurası tərəfindən təsdiq edilmişdi.

# Meksika Senatında Qarabağ...

madəniyyət

*Meksika Birləşmiş Ştatlarının parlamentində ABŞ-da yaşayan azərbaycanlı rəssam və memar Yavər Rzayevin rəsm ekspozisiyalarından ibarət «Qarabağ mənim xatirimdə» («Karabakh on my mind») adlı sərgi açılıb.*

Senatın xarici əlaqələr komitəsinin sədri xanım Qabriela Kuevas Barronun təşkilatçılığı ilə keçirilən tədbirin açılış mərasimində Meksika Konqresinin və ölkə ictimaiyyətinin nümayəndələri, diplomatik korpusun üzvləri iştirak ediblər.

Azərbaycanın Meksika Birləşmiş Ştatlarındakı səfiri İlqar Muxtarov sərginin açılmasını iki ölkə arasında mədəni əlaqələrin daha da yaxınlaşmasına xidmət etdiyini söyləyərək bunu qarşılıqlı əməkdaşlığın inkişaf göstəricisi kimi dəyərləndirib. O, əslən Qarabağdan olan, hazırda ABŞ-da yaşayan Yavər Rzayevin sərgisinin təşkilindən qürur hissi duyduğunu bildirib. Qarabağın təkcə təbii deyil, həm də böyük mədəni zənginliyə malik olduğunu qeyd edən diplomat bölgənin məşhur muğam və xalçaçılıq sənəti, habelə şair, yazıçı, rəssam və bəstəkarlar diyarı olduğunu vurğulayıb.

Azərbaycanın tarixi torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini və 1 milyondan çox soydaşının qaçqın və məcburi köçkünə çevrildiyini xatırladan səfir münaqişənin sülh yolu ilə həllinə ümidlə yanaşmanın insan təbiətinin təzahürü olduğunu bildirib.

Senatın vitse-prezidenti Xose Rosas Arispuro sərgini zəngin tarixi və mədəniyyəti olan xalqlarımız arasında bir mədəni mübadilə və əməkdaşlığa töhfə nümunəsi kimi qiymətləndirib.

Sərgi oktyabrın 31-dək davam edəcək.

**Müdriklər deyib ki...**

***«Elə yaşamalısan ki, öləndən sonra ölməyəsən – həyatın məqsədi məhz budur».***

*Cəlil Məmmədquluzadə (1866-1932)*

